www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23-24 may 2015-ci il Şənbə № 111 (6139) Qiymətı 40 qəpik

**Xəbər**

## Bakıda təhlükəsizliklə bağlı təxribatçı mesajlar yayan gənc tutuldu

yazısı səh.2-də

**Gündəm**

### Azərbaycan Riqa sammitinin Bəyannaməsini xüsusi şərtlə imzaladı



**Novruz Məmmədov:** "Təkliflərimiz nəzərə alınmasa, Avropa İttifaqı ilə əməkdaşlıqla bağlı mövqeyimizi bildirəcəyik"

yazısı səh.2-də

### Yanğına səbəb terrordurmu; hadisəyə görə Vasif Talıbovun qohumu da tutuldu

yazısı səh.13-də

*Atilla Kaya:*

### "Biz iqtidar olmaq üçün mübarizə aparırıq"

yazısı səh.8-də

### "Mən o binaya yenidən necə qayıdım?" - yanan binadan yeni reportaj

yazısı səh.3-də

### İqtidar və müxalifətdən bir-birinə yanğın ittihamı

yazısı səh.12-də

*Əli Məsimli:*

### "Acgözlüyün, sərvət hərisliyinin də bir həddi olmalıdır"

yazısı səh.6-da

### Corc Soros III dünya müharibəsi vəd etdi

yazısı səh.2-də

### Sökülən villaların arasında müxalifət liderlərinin evi varmı?

yazısı səh.11-də

### Tağı Əhmədov YAP-ın Yasamal təşkilatının sədri ola biləcəkmi...

yazısı səh.10-da

### Ermənistan prezidenti Riqada necə biabır oldu...

yazısı səh.9-da

### Vaşinqton Bakıdan seçim etməyi tələb edir

yazısı səh.8-də

## "Oliqarxqeyt işi"ndə yeni sensasion xəbərlər

# MƏŞHUR BİZNESMEN "HAFKA" ÖLKƏDƏN QAÇDI - İDDİA

Beynəlxalq Banka bir neçə milyon manat borcu olan Hafiz Məmmədov barəsində həbs qərarı verilməmişdən 2 gün əvvəl Azərbaycanı tərk edə bilib; türkiyəli iş adamları reputasiyalarını zərbə altına qoymamaq üçün oliqarxların satışa çıxardığı əmlakları almaqdan imtina edirlər...



Hafiz Məmmədov

yazısı səh.4-də

# Putini Bakıya gətirən 4 vazkeçilməz səbəb

İlham Əliyevin Riqa sammitində iştirakdan imtinasından bir gün sonra Kreml başçısının Avropa Oyunlarının açılışına qatılacağı haqda xəbər təsadüfdürmü? Rusiya liderinin Ərdoğanla görüş fürsəti də gerçəkləşir

yazısı səh.9-da



*Siyavuş Novruzov:*

### "Prezident həmin şəxsləri tutduğu vəzifədən azad edəcək və sərt şəkildə cəzalandıracaq"

yazısı səh.12-də



*Hacıbala Abutalıbov:*

### "Məni istintaqa çağırmayıblar"

yazısı səh.5-də



### Nərgiz Yaqublu Müsavat Partiyasında anıldı

yazısı səh.5-də

## 23 may 2015



**Müsavat Partiyasının başqanı Arif Hacılı partiya üzvü Elşad Budaqovu 50 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Elşad bəy!**

**Sizi 50 illik yubileyiniz münasibəti ilə təbrik edir, uzun ömür, can sağlığı və işlərinizdə uğurlar arzulayıram.**

**Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. Yarandığı ilk gündən Azərbaycan Xalq Cəbhəsinin üzvü kimi ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu işlərinə böyük töhvələr vermisiniz.**

**Apardığınız bu şərəfli işi 2003-cü ildən Müsavat Partiyasının sıralarında davam etdirmisiniz. Uzun müddət Sabunçu rayon təşkilatının Şura üzvü, sədr müavini kimi təşkilatın fəaliyyətinin gücləndirilməsinə öz töhfənizi vermisiniz.**

**Prinsipial və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra hər zaman övladınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Elşad bəy!**

**Sizi bir daha 50 illik yubileyiniz münasibətilə təbrik edir, apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**

# BAMF İlham Əliyevi ali mükafatla təltif etdi

**Mayın 22-də Bakıda Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) baş ofisinin açılış mərasimi keçirilib. Mərasimdə dövlət rəsmiləri, deputatlar, diplomatlar, media rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edib. Ofisin açılış lentini Azərbaycan prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev və BMT-nin Azərbaycandakı rezident koordinatoru cənab Antonius Bruk kəsib. Daha sonra ofisə baxış keçirilib.**



Mərasimdə çıxış edən BAMF-ın sədri Umud Mirzəyev deyib ki, Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) Dağlıq Qarabağ münaqişəsinin ağrılı-acılı dövrlərində fəaliyyətə başlayıb, dünyada sülhün təbliğinə çalışıb: "Fəaliyyətimizdən 23 il keçir. Bu müddət ərzində BAMF dövlət qurumları, müxtəlif beynəlxalq təşkilatlar, səfirliklər və beynəlxalq QHT-lərlə əlaqə qurub. Fondumuz BMT-nin İqtisadi-Sosial Şurasının əsas məşvərətçi statuslu üzvüdür. Azərbaycanda vətəndaş cəmiyyətinə diqqət və qayğı olmasaydı, sözsüz ki, Beynəlxalq Avrasiya Mətbuat Fondu bu uğurlara imza ata bilməzdi".

Mərasimdə çıxış edən prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov isə bəyan edib ki, Azərbaycanda vətəndaş cəmiyyəti institutunun belə ofisə malik olması çox böyük mətləblərdən xəbər verir. Cənab Həsənovun sözlərinə görə, BAMF Azərbaycanda QHT-lərin klassik nümunəsidir və 20 ildir, Azərbaycanda səmərəli fəaliyyət göstərir: "Mən bu sahədə Umud Mirzəyevin fəaliyyətini yüksək dəyərləndirirəm. Bu gün Azərbaycanda Beynəlxalq Avrasiya Mətbuat Fondu kimi 3 500 QHT fəaliyyət göstərir və Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna töhfə verir. Təməli Heydər Əliyev tərəfindən qoyulan vətəndaş cəmiyyəti quruculuğu siyasəti bu gün prezident İlham Əliyev tərəfindən davam etdirilir. Beynəlxalq Avrasiya Mətbuat Fondunun fəaliyyəti, ofisi Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının boğulması barədə bəzi beynəlxalq təşkilatlarının ittihamlarına əsl cavabdır".

Mərasimdə iştirak edən BMT-nin Azərbaycandakı rezident koordinatoru cənab Antonius Bruk isə bu il Azərbaycan hökuməti və digər tərəfdaşları ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının 70-ci ildönümünü qeyd edəcəklərini bildirib. Sonda çıxış edən Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev yeni binasının açılışını qeyd edən BAMF-a gələcəkdə yeni uğurlar arzu edib.

Sonda Prezident İlham Əliyev Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında roluna görə BAMF-ın ali mükafatı ilə təltif edilib. Mükafat prezidentin köməkçisi Əli Həsənova təqdim olunub.

❑ E.PAŞASOY



# Azərbaycan Riqa sammitinin Bəyannaməsini xüsusi şərtlə imzaladı

**Novruz Məmmədov:** "Təkliflərimiz nəzərə alınmasa, Avropa İttifaqı ilə əməkdaşlıqla bağlı mövqeyimizi bildirəcəyik"

**Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin rəhbəri Novruz Məmmədov "Şərq tərəfdaşlığı sammitinin yekun Bəyannaməsinin müəyyən müddəalarını nə üçün blok etmək istədiklərinə aydınlıq gətirib.**

O, APA-ya açıqlamasında bildirib ki, Azərbaycan tərəfinin forumun yekun Bəyannaməsinə ciddi iradları olub: "Biz Bəyannamənin ruhunu Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığının xarakterinə uyğun saymırıq. Azərbaycan postsovet məkanında Avropa İttifaqı ilə uğurlu, hərtərəfli əməkdaşlıq edən dövlətdir. Amma Bəyannamədə Azərbaycanla bağlı müddəalar o ruha cavab vermir. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yanaşmadan narazıyıq. Bütün bunları biz açıq şəkildə Avropa İttifaqı rəhbərliyinə, burada iştirak edən bütün dövlətlərin nümayəndə heyətlərinə çatdırdıq.

Bununla bağlı çox böyük gərginlik yarandı. Biz ümumilikdə Bəyannaməyə razılıq veririk, amma xüsusi mövqeyimizi bildirməklə... Xüsusi mövqeyimizi isə rəsmi surətdə yazıb göndərəcəyik. Biz Avropa İttifaqı ilə sıx enerji, siyasi islahatlar, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlıq edirik, ikinci belə dövlət yoxdur. Amma bizi başqa dövlətlərlə eyniləşdirmək lazım deyil.

Azərbaycan prezidenti də dəfələrlə deyib ki, Avropa İttifaqı ilə münasibətlərimiz xüsusi xarakter daşımalı, aramızda strateji tərəfdaşlıq olmalıdır. Biz münasibətlərimizi bu istiqamətdə qurmaq istəyirik.

Bu dəfə də təklifimiz və tələbimiz bu idi ki, Avropa İttifaqı ilə münasibətlərimizi başqaları ilə eyni çərçivədə yox, ayrıca - strateji tərəfdaşlıq sənədi ilə quraq. Danışıqlar da bu istiqamətdə gedirdi. Təkliflərimiz Avropa İttifaqı tərəfindən nəzərə alınmasa, gələcəkdə bu əməkdaşlıq, bu əməkdaşlığın xarakteri ilə bağlı mövqeyimizi bildirəcəyik".

# Avropa Parlamenti sədrindən Bakıya siyasi dustaqlarla bağlı irad...

**Azərbaycanda hüquq müdafiəçiləri haqda çıxarılmış ittiham hökmləri Avropa Birliyinin (AB) "Şərq tərəfdaşlığı" proqramının əsaslandığı dəyərlərlə ziddiyyət təşkil edir. Musavat.com-un məlumatlına görə, bu barədə Avropa Parlamentinin sədri Martin Şultsun qurumun rəsmi saytında yerləşdirilmiş açıqlamasında deyilir.**

Onun sözlərinə görə, Avroparlament üçün təməl insan haqları danışıqlar predmeti deyil: "Şərq tərəfdaşlığı" demokratiyaya və konstruktiv dialoqa, çiçəklənmə və regionda sabitliyə hədəflənib. Rusiyanın "Yaxın xaric" ölkələrinə qarşı təhdidlərindən sonra AB-nin geri çəkilmək yox, bölgəyə daha ölçülü-biçili strategiya ilə daha güclü nüfuz etməsi imperativini yaradıb. "Şərq tərəfdaşlığı" bu yöndə böyük uğura imza atmaq üçün potensiala malikdir".

# Bakıda təxribatçı mesajlar yayan gənc həbs olundu

**Azərbaycanda "təhlükəsizlik tədbirləri" haqqında informasiyalar yayan şəxs həbs edilib. Bu barədə "Qafqazinfo"ya Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəhbəri Sadiq Gözəlov məlumat verib. Onun sözlərinə görə, həmin informasiya mediada işıqlandırıldıqdan sonra hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılıb, onun kimliyi müəyyənləşib və həmin şəxs DİN orqanlarının əməkdaşları tərəfindən həbs edilib.**

Həbs edilən şəxs 1995-ci il təvəllüdlü, 3 kurs tələbəsi Mehdi Əliquliyevdir. O, xırda dələduzluqda ittiham edilərək, barəsində 20 sutkalıq cəza müəyyən edilib.

Qeyd edək ki, dünəndən başlayaraq həm Facebook, həm də Whatsapp istifadəçilərinin şəxsi mesaj qutularına "Baku 2015" Avropa Oyunlarında "təhlükəsizlik tədbirləri" haqqında informasiyalar göndərilib.

Həmin informasiyada Azərbaycan vətəndaşlarına müraciət edilərək ehtiyatlı olmaları ilə bağlı xəbərdarlıq edilir və bir neçə gün əvvəlki yanğın hadisəsi kimi hadisələrin yenə baş verəcəyi istisna edilmirdi. Müraciətdə vətəndaşlara təhlükə anında DİN və MTN-in məlum xidməti nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunurdu.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Corc Soros III dünya müharibəsi vəd etdi

**Amerika milyarderi Corc Soros yeni dünya müharibəsinin başlamasını mümkün sayır. Avropa.info xəbər verir ki, Corc Soros "Market Watch" jurnalına verdiyi müsahibədə bildirib ki, üçüncü dünya müharibəsinin əsasını Çin və ABŞ arasındakı münaqişə qoyacaq. Çin öz iqtisadiyyatını daxili tələbatın ödənməsi yox, ixrac üzərində qurub. İxrac üzərində hökmranlığı saxlamaq üçün Çin hakimiyyətinə münaqişə lazım olacaq.**

"Əgər ABŞ-ın hərbi müttəfiqləri ilə Çin arasında, məsələ Yaponiya ilə münaqişə başlasa istisna deyil ki, biz üçüncü dünya müharibəsinin Astanasında dayanacağıq".

Bunun qarşısını almaq ABŞ Çinə "böyük güzəşt" etməlidir. Çinə Beynəlxalq Valyuta Fondunun valyuta səbətində yer verməlidir. Bu halda Çin yuanı dollara ciddi rəqabət təşkil edəcək. Çin isə öz növbəsində ölkə iqtisadiyyatının formalaşdırılmasında güzəştə getməlidir. Sorosun sözlərinə görə, Çin və ABŞ arasında razılaşma əldə etmək çətin olacaq. Ancaq alternativlər çox pisdir. Əks halda təhlükə var ki, Çin Rusiya ilə siyasi və hərbi ittifaq yaratsın. O zaman yeni dünya müharibəsi real olacaq.



# Milli Şuranın keçmiş üzvlərindən Vidadi İsgəndərliyə cavab...

**Hüquq müdafiəçisi Vidadi İsgəndərlinin "Yeni Müsavat"ın 22 may sayında dərc olunan müsahibəsində Milli Şura barəsində səsləndirdiyi bəzi fikirlər ciddi qalmaqala səbəb olub. Hüquq müdafiəçisi qurumun bəzi üzvlərinin hakimiyyətlə əlaqələrinin olması barədə ciddi ittihamlar səsləndirib.**

V.İsgəndərlinin əsas narazılıq doğuran fikirləri bunlardır: "Mən həbsxanada əzab çəkib, azadlıq uğrunda mübarizə aparanda, Milli Şuranın bəzi üzvləri hakimiyyətə qulluq edirdilər".

Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev Vidadi İsgəndərlinin heç vaxt qurumun üzvü olmadığını və bu cür fikirlərə münasibət bildirmək istəmədiyini söylədi.

Vaxtı ilə Milli Şuranın üzvü olmuş, sonradan istefa verən KXCP sədrinin müavini Xəzər Teyyublu hüquq müdafiəçisinin fikirlərinin doğru olmadığını qeyd etdi: "Milli Şuranın təsisçilərindən biri olmuşam. Həmin dövr üçün uğurlu birlik idi. Prezident seçkilərində demokratiya uğrunda mübarizə apardı. Nəyi bacardıqca, onu da etdik. Seçkidən sonra qurum daha da toparlanmalı və güclənməli idi. Təəssüflər olsun ki, bunlar baş vermədi. Nəticədə qopmalar baş verdi. Milli Şura həmin dövr üçün fəaliyyətini yekunlaşdırmalı oldu. Xalq hərəkatına çevrilmək üçün böyük imkanlara malik idi. Bunlar olmadığına görə, onun daxilində olan şəxsləri hakimiyyətə işləməkdə suçlamaq doğru deyil. Bu cür ittihamlara şərh vermək çətindir. Konkret hakimiyyətlə əlaqələrin olması barədə mən də məlumat olmayıb. Nə görməmişəm, nə də, eşitməmişəm".

Milli Şuranın sədr aparatının keçmiş üzvü Yeganə Hacıyeva qurumda olduğu müddətdə bu cür halların şahidi olmadığını bildirdi: "Ümumiyyətlə, kiminsə Milli Şurada hökumətə işlədiyini görməmişəm. Üzvü olduğumuz təşkilatı tərk edəndən sonra pisləməyi siyasi etikadan kənar hal hesab edirəm. Məncə, yollar ayrılanda hər iki tərəf səhvlərdən nəticə çıxarmalı və yola davam etməlidir".

❑ Cavanşir ABBASLI



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# "Mən o binaya yenidən necə qayıdım?" - Yanan binadan yeni reportaj

## **Sakin Aynurə Cəfərova:** "Qonşularımın meyiti üstündən keçib çıxmışam blokdan, ağır travmam var..."







**Bakının Binəqədi rayonunda faciə ilə nəticələnən yanğının baş verdiyi binada təmir-bərpa işlərinə start verilib. "Yeni Müsavat"ın əməkdaşı mayın 22-də günün birinci yarısında hadisə yerində olanda sakinlərin evdə qalmış əşyalarını çıxarmaqda davam etdiklərinin, eləcə də binanın yanmamış hissəsindən poliuletan üzlüyünün sökülməsinə başlandığının şahidi olub.**

Sakinlərdən Firudun Hüseynov əməkdaşımıza açıqlamasında bildirdi ki, onun evi binanın 9-cu mərtəbəsində yerləşir. Hadisə baş verəndə həyat yoldaşı ilə iki nəvəsinin mənzildə olduğunu deyən müsahibimiz onların öz hesablarına xilas olduqlarını dedi: "İndi əşyaları yığırıq. Qab-qaşıq, mebellər yanıb. Sənədlərimiz yerli-dibi yoxdur, hamısı külün içindən çıxdı. Salamat qalan bəzi əşyaları yığa bilmişik. 1000 manat verilib. Amma kirayə üçün də əlavə 500 manat veriblər. 1-ci mikrorayonda bir kirayə mənzil tapmışıq. Nə qədər müddətə, bilmirik".

Müsahibimiz dedi ki, onlara yaşadıqları mənzilin təmir olunacağı bildirilib. Yanğından sağ çıxan nəvələrinin səhhətində isə hələ də problem olduğunu bildirən F.Hüseynov onlarda hələ də öskürək, öskürəkdən boğulma hallarının qaldığını deyib.

**Adını açıqlamaq istəməyən bina sakinlərindən olan bir xanım isə gözü yaşlı şəkildə dedi ki, hazırda ən çox qonşularından nigarandır:** "Məni bu dəqiqə nə yanan əşyalar, nə evin təmiri maraqlandırır. Qonşularımın hayındayam. Hələ də tam bilmirəm, hansı ölüb, hansı sağ qalıb. O ölən uşaqları hər gün əzizləyirdik həyətdə görəndə. Siz təsəvvür edirsiz, biz nə yaşamışıq".

**Müsahibimiz dedi ki, özü 1-ci mərtəbədə yaşayır və yanğından tez xəbər tutub, binanı da ilk tərk edənlərdən olub:** "İndi də kirayə mənzil tapıblar bizə, orda yaşayırıq. Amma heç nə gözümdə deyil, bizə olan oldu".

Binanın 5-ci mərtəbəsində yaşayan Qərib Rizvanov da bildirdi ki, hadisə baş verən zaman həyat yoldaşı ilə gəlini evdə olub: "Tez xilas ediliblər. İndi evdə salamat heç nə qalmayıb. Siz də məni bağışlayın, indi əynimdəkilərin hamısı oğlumun paltarlarıdır. Heç nə salamat qalmayıb. Bu ev təmir olunmasa, ora köçmək mümkün olmayacaq".

**Sakinlərdən Cəfərova Aynurə** isə ümumiyyətlə bu binada bir daha yaşamaq istəmədiklərini dedi: "Biz bura necə qayıdaq? Mən qonşumun meyitinin üstündən çıxarılmışam. Burda necə ciddi travma almışıq, xəbəriniz varmı? Necə yenidən, heç nə olmamış kimi yaşayaq burda? Mümkündürmü belə şey? Mən binada düz 7 saat qalmışam. 15-ci mərtəbədə yaşayırdım. O balkondan tez-tez ağ dəsmal çıxarıb yelləyən qadın vardı ha, o, mən idim. Nə zülmlə çıxmışıq ordan... Qonşulardan biri yana-yana özünü atdı yerə. İndi deyirlər, qayıdacaqsız ora, təmir olunacaq... Bəs bizim yaşadıqlarımız, stressimiz, ölüm qorxumuz necə olacaq? O pilləkənləri bir daha necə qalxıb-düşəcəyik? Hər dəfə o travmanı necə təkrarən yaşayacağıq?"

> **"O balkondan tez-tez ağ dəsmal çıxarıb yelləyən qadın vardı ha, o, mən idim. Nə zülmlə çıxmışıq ordan..."**

**A.Cəfərova dedi ki, yanan binanın pilləkənləri də əcaib formada, dar olub. İnsanların fövqəladə durumlarda ordan təcili şəkildə düşməsi qeyri-mümkündür. Daha bir detal isə binanın ikiqat qalın şüşə ilə əhatə olunmasıdır:** "Fövqəladə Hallar Nazirliyindən gələnlər o şüşəni balta ilə qırdı, inanırsız? O qədər möhkəm idi, təsəvvür edin. Əliyalın insanlar ordan necə çıxa bilərdi?"

**Bina sakinlərindən Cəfərova Mehriban** isə yanğın zamanı yaş yarımlıq körpəsinin səhhətinə ciddi ziyan dəydiyini, uşağının iki gecədir qapqara rəngdə qaytardığını, öskürəyinin isə ara vermədiyini dedi: "Uşağım gecə boğulur. Həmin gün burdakılara dedim ki, uşağım pis vəziyyətdədir. Dedilər ki, taksiyə minin, gedin xəstəxanaya da... Sonra 103-ə zəng elədim. İndi də uşaq pis vəziyyətdədir, köməyim yoxdu".

Müsahibimiz ilkin kompensasiya və kirayə pulunu aldığını dedi. Bununla belə uşağının durumundan nigaran olduğunu vurğuladı. M.Cəfərovanın danışığına qulaq asan rəsmi şəxslərdən biri sürücüsünə göstəriş verərək, onu xəstəxanaya göndərdi.

Binanın qarşısında düzəldilən anım yerində isə diqqəti ağı deyərək, ağlayan bir neçə qadın çəkirdi. Onlardan birinin 2 yaşlı Ayxanın nənəsi olduğu bildirildi. Qadın "kaş mənim evim kül olaydı, amma balam qalaydı" deyərək, uzun müddət nəvəsinin şəklinin qarşısından ayrılmadı.

❑ **Sevinc TELMANQIZI**
**Fotolar MÜƏLLİFİNDİR**

# Bizi birləşdirən dəyər-faciələr...

## Xalqımız daha çox faciəli günlərdə həmrəylik nümayiş etdirir



**Azərbaycanda milli azadlıq hərəkatı başlandığı illərdən xalq arasında bir tendensiya yaranıb: Xalqımız daha çox faciəli günlərdə həmrəylik nümayiş etdirir. 20 Yanvar və Xocalı faciəsi, eləcə də, bu kimi ağır günlərin ildönümlərində, yalnız ildə bir dəfə kütləvi ziyarətlərin şahidi oluruq.**

Əslində, bu, bir xalq üçün müsbət amildir. Amma onu da təəssüflə qeyd etmək lazımdır ki, günü-gündən unudulan faciələrimiz də var. 6 il öncə baş verən ADNA terrorunu misal göstərmək olar. Üstündən qısa zaman keçsə də, sanki belə bir hadisə olmayıb. ADNA-nın sonuncu ildönümü hər şeyin sübutu idi.

Bəs görəsən, mayın 19-da baş verən dəhşətli faciə hansı silsilədən olacaq? Unudulan, yoxsa xatırlanan?

Hələ ki faciədən keçən bu günlər ərzində çoxlu sayda insan ölənlərin ruhunu yad etmək üçün yanan binanın önünə gəlir, gül dəstələri qoyur və şam yandırırlar. Xüsusilə, gecə saatlarında ziyarətə gələnlərin sayı daha çox olur. Hətta rayonlardan belə ziyarətə gələnlər var. Bütün bunlar xalqımızın heç şübhəsiz ki, unutqan olmadığının sübutudur.

**Politoloq Natiq Miri** hesab edir ki, faciəli günlərdə xalqımızın həmrəy olması müsbət dəyərləndirilməlidir: "Əslində, bu, millətin qan yaddaşından gələn bir dəyərdir. Müsbət dəyərləndirilməlidir. Çünki bütöv sistemlərdə adətən, bu cür kataklizmlərdə dərhal xalq öz-özünü təşkil edir. Normal cəmiyyətlərin spesifik xüsusiyyətləridir. Eyni zamanda, Azərbaycan toplumu da belədir. Hər hansı bir faciə, təhlükə qarşısında qalanda, dərhal bütün toplumlar kimi, biz də öz-özümüzə dəstək olmağı bacarırıq. Bu, özünü müdafiə kimi dəyərləndirilməlidir. Normal bir haldır. Əslində bu göstərir ki, hələ də bu millət özünü qorumağı bacarır. Çox müsbət göstəricidir".

**Natiq Miri dedi ki, millətimizin bəzi faciələri unutması halı da mövcuddur:** "Keçmişi olmayanın gələcəyi olmaz. Belə faciələrin unudulmaması dövlət siyasəti olmalıdır. Dövlət faciələri cəmiyyətin yaddaşına hopdurmalıdır".

"Millətimiz lazım olanda həmrəy olmağı nümayiş etdirir. Yanan binanın qarşısına gül qoymaq üçün gələn insan izdihamı millətimizin bu faciəni ürəkdən yaşadığını göstərdi". Bu sözləri publika.az-a açıqlamasında Milli Televiziya və Radio Şurasının (MTRŞ) üzvü, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva bildirib. S.Vəliyeva bütün məsələlərdə vətəndaş mövqeyindən çıxış etməyin vacibliyini vurğulayıb.

Baş vermiş hadisədən dərhal sonra ölkə başçısının məsələyə münasibət bildirdiyini və baş vermiş hadisənin istintaqını öz nəzarətinə götürdüyünü xatırladan S.Vəliyeva qeyd edib ki, Azərbaycan prezidentinin bu cür addım atmasını hər kəs böyük rəğbətlə qarşılayıb: "Dövlət başçımız bu hadisə ilə bağlı böyük vətəndaşlıq və həmrəylik nümayiş etdirdi, ürək yanğısı ilə bəyan etdi ki, bütün beynəlxalq yarışlar bu faciənin yanında heç nədir. Yəni, ən böyük beynəlxalq tədbirlər mənim vətəndaşımın yaşadığı bu faciə yanında heçə bərabərdir".

**S.Vəliyeva deyib ki, mayın 19-da Azərbaycan xalqı böyük faciə ilə üzləşib:** "Əgər bu hadisə zamanı 1 nəfər vəfat etsəydi belə, əlbəttə ki, bu heç kəsə xoş gələ bilməzdi. Çünki bu, bizim soydaşımızın faciəsidir. Hər bir Azərbaycan vətəndaşı, o cümlədən televiziya aparıcısı bu hadisəyə öz ailəsinin faciəsi kimi yanaşmalıdır. Ötən gün telekanallarda göstərilən bir süjet məni çox təsirləndirdi. Yəni, millətimiz lazım olanda həmrəy olmağı nümayiş etdirir. Yanan binanın qarşısına gül qoymaq üçün gələn insan izdihamı millətimizin bu faciəni ürəkdən yaşadığını göstərdi. Əlbəttə ki, bu faciəyə laqeyd münasibət hər birimizi narahat edir. Əgər hər hansı adam bu faciəni yaşasaydı və digər insanlar da ona qarşı laqeydlik göstərsəydi, bu, onun xoşuna gələrdimi? Bu mənada da biz faciədə və xoş günlərdə də həmrəy olmağı bacarmalıyıq. İnanıram ki, baş vermiş bu hadisə ilə bağlı hər bir insan özünün məsuliyyətini ortaya qoyacaq, insanlıq yüksək zirvədə dayanacaq və haqq-ədalət öz yerini tapacaq. Mən bu faciə zamanı dünyasını dəyişənlərə Allahdan rəhmət, sağ qalanlara isə şəfa və başsağlığı vermək istəyirəm. Eyni zamanda bu faciəni öz faciəsi kimi yaşayanlara başsağlığı diləyirəm".

❑ **Cavanşir ABBASLI**

## “Oliqarxqeyt işi”ndə yeni sensasion xəbərlər

**Xəbər verdiyimiz kimi, Beynəlxalq Banka külli miqdarda kredit borcu olan iş adamlarının həbsinin yeni dalğası başlayıb. DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılan bir qrup iş adamı barəsində Nərimanov Rayon Məhkəməsində həbs qətimkan tədbiri seçilib. Həbs edilən iş adamlarının adları hələ ki açıqlanmayıb.**



# Məşhur biznesmen “Hafka” ölkədən qaçdı - iddia

### Beynəlxalq Banka bir neçə milyon manat borcu olan Hafiz Məmmədov barəsində həbs qərarı verilməmişdən 2 gün əvvəl Azərbaycandan qaça bilib; türkiyəli iş adamları reputasiyalarını zərbə altına qoymamaq üçün oliqarxların satışa çıxardığı əmlaklarını almaqdan imtina edirlər...

“AzPolitika.info”ya mötəbər mənbələrdən daxil olan məlumata görə, barəsində həbs-qətimkan tədbiri seçilən iş adamlarından biri də, məşhur oliqarx, “Hafka” ləqəbi ilə tanınan Hafiz Məmmədovdur. Saytın iddiasına görə, Hafiz Məmmədov barəsində həbs-qətimkan tədbiri Nəsimi Rayon Məhkəməsi tərəfindən mayın 18-də seçilib. Ancaq Hafiz Məmmədovu həbs etmək mümkün olmayıb. Belə ki, bu qərarın verilməsindən 2 gün əvvəl - mayın 16-da “Hafka” ölkədən qaça bilib.

Həbs ediləcəyindən əvvəlcədən xəbərdar olan Hafiz Məmmədovun Azərbaycandan necə və hansı ölkəyə qaçdığı məlum deyil.

Beynəlxalq Bankdan götürülən kreditlərin mənimsənilməsi ilə bağlı başlanmış cinayət işi çərçivəsində “Hafka”nın indiyədək həbsə olunmaması təəccüb doğurdu. Çünki Beynəlxalq Bankdan çox böyük həcmdə kredit götürüb qaytarmayanlardan biri də məhz Hafiz Məmmədovdur. Banka bir neçə 100 milyon manat borcu olan “Hafka”, aldığı krediti qaytarmadığına görə Beynəlxalq Bank tərəfindən hətta məhkəməyə də verilib.

Xatırladaq ki, bir gün əvvəl “Yeni Müsavat” Beynəlxalq Banka ən çox borcu olanlardan biri, eks-deputat, “Globus Plaza” şirkətinin sahibi Dünyamin Xəlilovun da ölkədən qaçdığı barədə xəbər yayıb.

Xəbərlərə görə, istintaqa cəlb olunan iş adamlarından təkcə bu ilə yaranmış borcların deyil, ümumiyyətlə Beynəlxalq Banka bütün kreditləri qaytarmaq tələb olunur. Bu faktı istintaq cəlb edilən Qafqaz İnkişaf Bankı Müşahidə Şurasının sədri Eldar İsmayılov da təsdiqləyib. Bankir həbs olunması barədəki xəbəri şərh edərkən bildirib ki, Beynəlxalq Bank yaranmış iqtisadi vəziyyətlə bağlı verdiyi kreditlərin vaxtından əvvəl ödənməsini xahiş edib: “Məni bununla əlaqədar DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə dəvət etdilər. Orada əsasən onunla maraqlandılar ki, bizim bank götürdüyü krediti necə qaytarmağa hazırlaşır. Mən də orada izahat verdim. Biz razılaşdıq ki, Beynəlxalq Bankdan götürdüyüm krediti vaxtından əvvəl ödəyək”.

**E.İsmayılov həbs olunması barədə yayılan məlumatları, habelə Qafqaz İnkişaf Bankı ilə Beynəlxalq Bank arasında hər hansı problemin olması barədəki informasiyaları təkzib edib:** “Bizim Beynəlxalq Bankdan götürdüyümüz kreditin məbləği o qədər də böyük deyil. Faizləri nəzərə almasaq, üst-üstə 9 milyon manat kredit borcumuz var. O pulu da bir neçə dəfəyə götürmüşük. O borcdan 2 milyon manatı ödədik. Beynəlxalq Bankdan götürdüyümüz pulları artıq kredit şəklində sahibkarlara vermişik. Onlardan həmin pulları geri qaytarmalarını tələb etmək problem yaradar. Ona görə də alternativ mənbələr axtarırıq ki, Beynəlxalq Bankın xahişinə əməl edə bilək”.(virtualaz.org).

“Kredit işi” ilə bağlı həbs olunan və istintaqa cəlb olunan iş adamlarının bir çoxu onlara məxsus biznes obyektlərini satışa çıxarması ilə müşahidə olunur. Beynəlxalq Bankdan götürdüyü külli miqdarda krediti geri qaytarmayan iş adamı Hacı İbrahim Nehrəmli sahibi olduğu “Avesta” holdinqin binasını satır. Bu barədə azvision.az-a iş adamının yaxın çevrəsindən məlumat verilib.

Adının mətbuatda çəkilməsini istəməyən mənbənin sayta bildirdiyinə görə, Hacı İbrahim Bakıda hamının “milyarderlər məhəlləsi” kimi tanıdığı Teymur Əliyev küçəsindəki villasını və “Avesta” konserninin yerləşdiyi çoxmərtəbəli binanı satışa çıxarıb. İş adamı sahibi olduğu binanı real alıcılara 45 milyon manata təklif edib. Beynəlxalq Bankdan götürdüyü 78 milyon dolları geri qaytara bilməyən Hacı İbrahim ona qoyulan vaxtda borcunu qaytarmaq üçün binanı real alıcı olarsa, 23 milyona satmağa hazır olduğu bildirib.

Bir neçə iş adamı bina ilə maraqlansa da Hacı İbrahim alıcı tapa bilməyib. Bina 15 mərtəbədən ibarətdir. Alt mərtəbədə sauna və bilyard zalları, ofislər yerləşir.

Bundan başqa, ölkədən qaçdığı deyilən eks-deputat Dünyamin Xəlilov borclarını qaytarmaq üçün sahib olduğu “Globus Plaza” ticarət mərkəzində böyük endirim edib. “Harvey Nichols” mağazası satdığı mallara böyük endirim elan edib. Deyilənlərə görə, obyektin sahibi elit firmanın məhsullarını misilsiz endirimlə satışa çıxarıb. Həmin mallara 60 faiz endirim elan edilib. Rəhbərliyin bu addımı atması onun nağd pula kəskin ehtiyacının yaranması ilə izah olunur. “Park Bulvar” ticarət mərkəzində də həbsdə olan bir neçə biznesmenin mağazalarında mallar “su qiymətinə” endirilib. Yeri gəlmişkən, Dünyamin Xəlilovun ticarət mərkəzində işçilər üç aydır maaş almadıqları üçün etiraz aksiyasına hazırlaşdıqları barədə də məlumatlar yayılıb.

Bundan əlavə, iki həftədən çoxdur ki, plazanın işçilərinə nahar verilməsi də dayandırılıb. Naharın kəsilməsinə səbəb kimi isə maliyyənin olmaması göstərilir. Digər məlumata görə, ticarət mərkəzinin mühafizə xidmətinin işçiləri kütləvi şəkildə işdən çıxarıla bilər.

“Turan”ın həbslərlə bağlı şərhində qeyd edilir ki, borcların tələb edilməsi prosesi hələlik iqtisadi duruma mühüm təsir göstərmir. “Lakin uzunmüddətli perspektivdə bu, həmin oliqarxların müəssisə və obyektlərinin bağlanması, ölkədən kapital axını, investisiya mühitinin pisləşməsi və sahibkarlara inamın itməsi nəticəsində minlərlə, bəlkə də on minlərlə iş yerinin itirilməsi deməkdir” deyə, agentlik bildirir.

**“Yeni Müsavat”a daxil olan məlumata görə, əmlakını satışa çıxaran oliqarxlar türkiyəli biznesmenlərə müraciət ediblər. Amma türk biznesmenlər bu işdə maraqlı olmadıqlarını deyiblər. Onlar “indilikdə bu fürsətcillik olardı” desələr də, məlumata görə, əsl səbəb başqadır. Belə ki oliqarxların əmlakının böyük bir qismi “şübhəli maliyyə” ilə əldə edilib. Bu səbəbdən də türkiyəli iş adamları reputasiyalarını zərbə altına qoymaqdan çəkinirlər.**

❑ **“Yeni Müsavat”**

# Nüşabə Sadıxlının fikirlərinə narazılardan cavab gəldi

## Məclis sədrinin sözləri etirazla qarşılanıb

**Müsavat Məclisinin sədri Nüşabə Sadıxlının partiyadan çıxarılanlar və narazılar barədə APA-ya verdiyi müsahibə narazılıqla qarşılanıb. Məclis sədri qurumdan çıxarılanların müsavatçı adına layiq olmadığını, kimin-kim olduğunun aydınlaşdığını bildirib.**

N.Sadıxlının əsas qalmaqal yaradan fikirləri bunlardır: “Müsavatçı adını daşımağa layiq olmayanlar partiyadan xaric olunsa yaxşıdır”.

ADR hərəkatının rəhbəri, partiyadan xaric olunan Qubad İbadoğlu səslənən fikirlərə şərh vermək istəmədiyini bildirdi: “Danışdıqları sözün məsuliyyətini dərk etməyənlərin açıqlamalarını şərh etmək istəmirəm. Müsavat adını hörmətdən salanlar, partiyanın nüfuzuna xələl gətirənlər, qurultayda seçkiyə haram qatanlar. saxta bəyanatlar verənlər, nizamnamə pozuntuları, anti-demokratik üsullar, qrup maraqları ilə partiyanı idarə edib dərnək səviyyəsinə endirənlərdir. Bunlar ictimaiyyətə yaxşı bəllidir. Tarix də vaxtı gələndə öz qiymətini verəcək”.



Nüşabə Sadıxlı



Qubad İbadoğlu

Müsavat başqanlığına sabiq namizəd Tural Abbaslı ziyalı bir xanımın dilindən səslənən bu cür fikirlərə təəssüfləndiyini gizlətmədi: “Sadəcə, təəssüfləndim. Nüşabə xanım kimi, ziyalı bir şəxs bu cür fikirlər səsləndirməməlidir. Ən azından illərdir eyni yolu getdiyimiz insanlara belə qiymət vermək doğru deyil. O insanların böyük əksəriyyəti fədakar müsavatçılardır. Bunu mübarizələri ilə sübut ediblər. İndi o insanlar Arif Hacılını bəyənmirlərsə, bu, o demək deyil ki, müsavatçı adına layiq deyillər. Əslində onlar nümayiş etdirirlər ki, Müsavatda baş əymək, mütilik yoxdur. Hər kəs öz doğru bildikləri uğrunda mübarizə aparır. Məclis sədrinin belə fikirlər səsləndirməməsi daha doğru olardı. Narazı deyilən kəsim 50% səs alıb. Rayon təşkilatlarından belə narazılar var. Hamısını damğalamaqla hara gedirik? Bu yolun da bir sonu olacaq. Müsavat könüllük əsasında fəaliyyət göstərir. Heç kəsə maaş verilmir. Fəaliyyət göstərənlərin mübarizə əzmindən xəbər verir. Belə insanların çıxmasına laqeyd yanaşmaq, partiyadan çıxarmaq başucalığı gətirməz. Çıxarılanların siyahısına baxsaq, Müsavatı təsis edənlər, iş yerlərini itirənlər, meydanlarda qanl tökülənlər, təhsil yerlərindən azad olunanlar, həyatlarının ən gözəl çağlarını həbsxanalarda keçirənlər var. Belə ifadələr insanları ruhdan salır, proseslərdən uzaqlaşdırır. Ümumiləşmiş ifadələr işlətmək olmaz. Nüşabə xanım deyir ki, kimin-kim olduğu aydınlaşdı. Kimin-kim olduğunu zaman göstərəcək, Nüşabə xanım. Məclis sədri birləşdirici funksiya daşımalı, bu postun sahibi hansısa qrupun mövqeyini müdafiə etməməlidir. Bizə qiyməti biz vermirik, cəmiyyət verir. Hadisələri tələsdirmək lazım deyil. Xalqın gözü tərəzidir. Zaman gələcək, xalqımız yaşanan proseslərə öz qiymətini verəcək. İstərdim ki, bu zaman partiyamıza böyük zərər dəyməsin”.

Müsavatdan istefa verən sabiq partiya funksioneri Adil Qeybulla Nüşabə Sadıxlının fikirləri ilə bağlı daha sərt danışdı: “Bu fikirlər onun siyasi savadsızlığından və mədəni səviyyəsindən xəbər verir. Onun fikirləri komikdir. Mən də belə hesab edirəm ki, kimin-kim olması aydınlaşdı. Nüşabə xanımın məqsədi Məclis sədri kimi parlamentə düşməkdir. Xanım olduğundan, çox şeyi açıqlamaq olmur”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015

**Binəqədi rayonu ərazisində yerləşən çoxmərtəbəli binada baş vermiş yanğının əks-sədası davam edir. Sakinlərin narazılığı, müvafiq qurumlar tərəfindən aparılan bərpa işləri, hadisə ilə bağlı kiçik çaplı məmurların həbsi... bir çox mətləblərlə bağlı suallar yaradıb.**

# "Komissiyanın araşdırmasında terror ehtimalı da var"

## Hacıbala Abutalıbov: "İşdən çıxarılacağım haqda məndə heç bir məlumat yoxdur"



**Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov** "Yeni Müsavat"ın suallarını cavablayarkən bir çox məqamlara aydınlıq gətirib. Müsahibimiz öncə görülən son işlər barədə məlumat verib.

- Görülən işlər çox yüksək səviyyədədir. Mənzil sahiblərinin hamısı kotteclərdə, evlərdə yerləşdirilib. Kimsə bu müddət ərzində kirayə tutubsa, problem yoxdur. Onlara da kirayə haqqı ödənilib.

***- Övladlarını itirən valideynlərin durumu necədir? Onlar hara yerləşdiriliblər?***

- Onların bir hissəsi özlərinin istədiyi kimi Goradildə, ayrı-ayrı kotteclərdə, bir hissəsi istədikləri kimi Buzovnadakı sanatoriyada, bir hissəsi isə özlərinin istəyinə görə qohumlarının evində qalırlar. Bununla belə hamısına kirayə haqqı verilir. Onları ən yüksək səviyyədə elə yerləşdirmişik ki, həm də həkim nəzarətində olsunlar.

***- Yeri gəlmişkən, yaralıların vəziyyəti necədir?***

- Bugünkü məlumata görə, onlar da xəstəxanadadır, iki-üç günə buraxılacaqlar. Prezident hər saat, hər dəqiqə bu işlə maraqlanır, göstərişlər verir.

***- Prezidentin müşavirədəki çıxışında xeyli tənqidi notlar oldu...***

- Hər bir məmur tənqidi nota görə, ümumiyyətlə tənqidin olmaması üçün əlindən gələni etməyə başlayıb.

***- Yanğına görə heç bir qurum məsuliyyət payını bölüşmək istəmir.***

- Bu gün istintaq gedir. Gəlin istintaqın işinə maneçilik törətmə-

## "Kim o binada yaşamaq istəməyəcəksə, nəzərə alacağıq"

yək. Bizim dediyimiz hər hansı bir söz istintaqın işinə problem yaradacaq. İstintaq ən yüksək səviyyədə işi aparacaq. Möhtərəm prezidentimizin dediyi kimi, ən yüksək səviyyədə də cəzalanacaqlar. Vəzifəsindən, tutduğu mövqedən asılı olmayaraq heç kimə güzəşt olmayacaq. Buna əmin ola bilərsiz...

***- Amma bu iş üzrə həbs olunan şəxslər olduqca kiçik ranqlı məmurlar. Binaları üzləyən firmanın rəhbəri, MİS müdiri, başçısının müavini... Əhalidə narazılıq var ki, niyə məsuliyyət kiçik məmurların üzərinə qoyulur?***

- Əmin olun ki, cəzalanacaqlar. İstintaqın nəticəsindən asılı olaraq cəzalanacaqlar. Mən hər gün o sakinlərlə görüşürəm, onların dərdlərini dinləyirəm. Dünən (21 may tarixində-S.T) iki nəfər sakin kirayədə qalmaq istəmədi, dedi ki, Goradildə kotteclərdə yaşamaq istəyirik. Bilirsiz ki, o kotteclər 3 otaqlıdır. Orda yemək, geyim pulsuzdur. Dövlət tərəfindən ödənilir. Digər tərəfdən, mən belə onların yanında Sərhəd Qoşunlarına aid kotteclərə müraciət elədim. İkisi də bunları məmnuniyyətlə qəbul elədilər, problem yoxdur.

## "Yanan bina ilə bağlı mən istintaqa dəvət olunmamışam"

***- Binəqədinin icra başçısı Xalədin İsgəndərov bizə müsahibəsində deyib ki, binalara üzlük çəkən firmaya buna görə dövlətdən hər hansı vəsait ödənməyib, bunu könüllülük əsasında edib... Bu, nə dərəcədə inandırıcıdır?***

- Gəlin istintaqın nəticələrini gözləyək.

***- Bunun istintaqın nəticələrinə nə aidiyyəti var?***

- Bu istiqamətdə deyilmiş hər bir sözün, verilmiş hər bir açıqlamanın istintaqa aidiyyəti var. Kim nə deyir, nə demir, onların hamısı istintaqın protokoluna yazılır, onlar da araşdırılır.

***- Bəs sizin özünüzün binaların üzlənməsi prosesindən xəbəriniz və bu işə Bakı şəhər İcra Hakimiyyəti olaraq hər hansı qatqınız var idimi? Sizin icazə vermək səlahiyyətiniz var idimi?***

- Mən sizə bir şey deyim. İstintaq gedir, istintaq bu işə ən kiçik aidiyyəti olan qurumları belə dəvət edir, sorğu-suala tutur…

***- Sizi dəvət ediblərmi istintaqa?***

- Mən istintaqa dəvət olunmamışam. Öz adımdan deyirəm. Amma istintaqa kim ki, kömək etmək istəyir, bildiyi əlavə məlumatı paylaşmaq istəyir, həmin adamlar istintaqa gedib öz bildiklərini deməlidir. Prokurorluq işçiləri hazırda yanan binanın yaxınlığında, 5 saylı polis bölməsinin yanında yerləşirlər. Polis idarəsinin də istintaq şöbəsi həmin bölmədədir. Qərargahımız da həmin bölmənin həyətindədir. Şikayətçilər də ora dəvət olunur, hər bir şikayətçi dinlənilir. Kimin nəyi, nə qədər yanıb, hamısı araşdırılır. Müəyyən qədər dözmək lazımdır. Əminəm ki, möhtərəm prezidentimizin tapşırığı ilə yaradılmış istintaq ədalətli olacaq. Kimliyindən və mövqeyindən asılı olmayaraq hamısı ən yüksək səviyyədə cəzasını alacaq.

***- Bu prosesin sonunda sizin də cəzalanacağınız, vəzifənizi itirəcəyiniz söz-söhbətləri yayılıb. Özünüzə qarşı hər hansı təhlükə hiss edirsiz?***

- Bilirsiz nədir? Vəzifəyə təyin edən də möhtərəm prezidentimizdir, vəzifədən azad edən də. Möhtərəm prezidentimizin qərarı müzakirə olunmur. Bu haqda məndə heç bir məlumat yoxdur. Yayılan məlumatlar isə yalan və böhtandır.

***- Paralel olaraq bu sual da meydana çıxır ki, Avropa oyunlarından qabaq binaların üzlükləri sökülür. Bəs oyunlara qədər o binaların üzü hansı formada dizayn ediləcək?***

- Biz əlimizdən gələni edəcəyik ki, Avropa Oyunlarına qədər işlər yekunlaşsın. Bu işlərin Avropa Oyunlarına heç bir dəxli yoxdur. Avropa Oyunları ən yüksək səviyyədə keçiriləcək.

***- Nə olacaq o üzlüklərin yerində? Boya, yoxsa...?***

- Ən yüksək səviyyədə bərpa işləri olacaq. Məsələn, elə bina var ki, xüsusi keramik qranit lövhələr vurulacaq. Eləsi var ki, onlar ağ daşla bəzədiləcək. Elə binalar var ki, onları rəngləyəcəyik. Almaniyadan və Finlandiyadan gətirilən rənglərlə. Çünki bu boyalar elə həmin ölkələrin özündə təcrübədən keçirilib. 5-10-20 il bu boyalar fasadlarda qalır. Biz də o boyaları xaricdən gətirib həmin texnologiyaların əsasında onları vuracağıq.

***- Hazırda müzakirə olunan versiyalardan biri də terror versiyasıdır. Binanın birdən-birə alışmasında, sürətlə yanmasında bu ehtimalın da payı olduğunu düşünənlər var. Sizin fikriniz necədir?***

- Bu dediyiniz də istintaqın araşdıracağı məsələdir. Komissiyanın araşdırmasında bu ehtimal da var. Hər bir fikir, ideya, ehtimal hamısı bir-bir yoxlanılır. Tam məlumatı hüquq mühafizə orqanları verəcək.

***- Dövlət başçısının son müşavirədə "Dostluq" parkındakı ərazidə sökülməli olan evlərlə bağlı çıxışını dinlədiz yəqin. Bu gün bizim qəzetin əməkdaşı ordan reportaj hazırlayıb və məlum olub ki, orda işlər dayanıb, söküntü getmir...***

- Kim deyir? Mən dünən axşam saat 8-də orda olmuşam, 4 texnika, 40 fəhlə işləyir ərazidə. Gecə-gündüz iş gedir.

***- O evlərin sahibləri üzə çıxdımı? Prezident evlərin sahiblərinin müəyyən olunmadığını deyirdi...***

- Əmin olun, evlərin yiyəsi də tapılacaq, onlar da cəzalanacaq.

***- O evlərin sahibləri arasında müxalifətçilər olsa, onlarla necə davranacaqsız?***

- Dövlət üçün müxalifət-iqtidarı məfhumu yoxdur, vətəndaş məfhumu var. Kimliyindən asılı olmayaraq, qanunsuz hərəkət edən şəxs cəzasını alacaq.

***- Yanmış bina sakinlərindən bəziləri deyir ki, hadisə zamanı ciddi travma aldığımız üçün yenidən o evlərdə yaşamaq istəmirik, başqa yerə köçürsünlər bizi. Onların bu istəyi nəzərə alınacaqmı?***

- Yüz faiz. Mənə hələlik bu haqda məlumat verilməyib. Hətta dünən görüş zamanı bir nəfər kənar adam çox hirsli vəziyyətdə dedi ki, adamlar var burda yaşamaq istəmir. Mən də dedim ki, qardaşım, oğlum, kim istəməyəcəksə, onlarla danışıqlar nəticəsində məsələni müsbət həll edəcəyik. Bu gün (22 may-red.) o 56 evin sakini ilə görüşürəm. Hamısı deyir ki, yüksək səviyyədə təmir olunacaq, mebellə təmin olunacaqsa biz yalnız və yalnız prezidentə minnətdarıq. Əlavə məlumat verilməyib. Bu gün (dünən-red.) saat 2-də onlarla Bakı Şəhər İcra Hakimiyyətində görüşəcəm, bütün problemlər yüksək səviyyədə həll olunacaq.

***- İstismar müddəti keçmiş yaşayış binalarına xərc çəkib, üzlük vurmaq nə dərəcədə məqsədəuyğundur?***

- Birincisi, şəhərdəki 140 binanın üzlüyü söküləcək. İstəyir beşmərtəbə olsun, istəyir birmərtəbə. Onların yeri də tez bir zamanda bərpa olunacaq. Buna əmin ola bilərsiz. İkinci bir tərəfdən, sizin sualınıza cavab olaraq deyirəm ki, bu binaların hamısını Fövqəladə Hallar Nazirliyi yoxlayır. Əgər nazirlik arayış versə ki, bu bina dayanıqlı deyil, bu binanın istifadə müddəti qurtarıb, amma yaşamaq olar, onda həmin binanı sökməyəcəyik. Yox, əgər desə ki, bu binada yaşamaq təhlükəlidir, əlbəttə ki, sökəcəyik. İnsanlara da müvafiq mənzillər verəcəyik.

❑ **Azər AYXAN, Sevinc TELMANQIZI**



# Nərgiz Yaqublu Müsavat Partiyasında anıldı



**Mayın 22-də Müsavat Partiyasında bir müddət əvvəl dünyasını dəyişən gənc fəal Nərgiz Yaqublunun anım tədbiri keçirilib. Musavat.com-un xəbərinə görə, tədbirdə N.Yaqublunun ailə üzvləri, Müsavat Partiyası rəhbərliyi və üzvləri, o cümlədən onun yaxınları iştirak edirlər.**




Əvvəlcə N.Yaqublunun xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra **Müsavat başqanı Arif Hacılı** Nərgiz Yaqublu haqqında danışaraq onunla bağlı xatirələrini bölüşüb: "Nərgiz Yaqublu gənc bir siyasətçi idi. Fədakar mübarizədən çəkinməyən gəncliyin liderlərindən bir, igid, mübariz Azərbaycan xanımının bir obrazı idi. Bu gün Nərgiz Yaqublunu itirməyimiz bizim üçün çox ağrılıdır. Təsadüfi deyil ki, Nərgiz Yaqublunun bu gənc yaşında vaxtsız olaraq aramızdan getməsi təkcə onun ailəsini, yaxınlarını, dostlarını, partiya yoldaşlarını, hərəkat yoldaşlarını yox, bütün Azərbaycan cəmiyyətini sarsıtdı. Onun ölümü bütün Azərbaycan cəmiyyəti üçün bu kədərli və faciəli hadisə oldu".

**A.Hacılının sözlərinə görə, Nərgiz Yaqublu bir vətəndaş olaraq Azərbaycan gəncliyinin mübarizə simvollarından biri olaraq Azərbaycan tarixində qalacaq:** "Əminəm ki, daim yad ediləcək. Bütün Azərbaycan xalqı tərəfindən yad ediləcək, unudulmayacaq, xatırlanacaq. Onun bu qısa həyat yolu daim valideynlər tərəfindən öz övladlarına bir nümunə kimi göstəriləcək. Bu gün onun yadigarı da sağ-salamatdır, Allaha şükürlər olsun. Böyüyüb boya-başa çatdıqda Azərbaycan xalqının sevimlisi olacaq".

**A.Hacılı qeyd edib ki, N.Yaqublunun xatirəsini partiya yoldaşları və dostları daim xatırlayacaq:** "Biz onun daim xatirəsini yaşatmağa çalışacağıq. Eyni zamanda, apardığımız bu mübarizəni davam etdirəcəyik. Mən əminəm ki, bizim apardığımız mübarizəyə görə, onun kimi qorxmaz, mərd, fədakar mübarizəmizə görə onun ruhu həmişə şad olacaq. Allahdan rəhmət diləyirəm".

Anım tədbirində Nərgiz Yaqublu ilə bağlı çəkilən film də nümayiş olunub. Filmdə Nərgizin atası Tofiq Yaqublunun, bacısının, qardaşının, həyat yoldaşının, həmçinin Müsavat başqanı Arif Hacılının, çalışdığı "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu və digərlərinin fikirləri də yer alıb.

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər** isə çıxışında qeyd edib ki, N.Yaqublunun xatirəsi heç zaman unudulmayacaq: "Nərgiz Yaqublu şərəfli bir ailənin nümayəndəsi idi, Yaqublu ailəsinin övladı idi. Şərəfli bir partiyanın, Müsavat Partiyasının üzvü idi. Şərəfli bir millətin, xalqın təmsilçisi idi. Nərgiz öz həyatı ilə ailəsinə və partiyasına da şərəf gətirən bir gənc idi. Onun xatirəsi hamımız üçün əzizdir".

**Tədbirdə çıxış edən digər insanlar da Nərgiz Yaqublunu mübariz gəncliyin, demokratik mübarizənin və mücadilənin simvolu kimi dəyərləndiriblər və məhz onu bu cür xatırlayacaqlarını vurğuayıblar. A.Hacılı isə bildirib ki, artıq Müsavat Partiyası N.Yaqublu ilə bağlı mükafat təsis edəcək və hər il mükafat demokratik düşərgədə mübarizəsi ilə tanınan insanlara təqdim ediləcək.**

❑ **Röya,**

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015



# Hər şey dindən asılı olsaydı...

**Hüseynbala SƏLİMOV**

**Bəlkə də elə ondan başlamaq daha düzgün olardı ki, bu həftə, ayın 21-də Dantenin anadan olmasından 750 il keçdi. "İlahi komediya" ilə məşhurlaşan Dante artıq 700 ildir ki, bütün dünyada maraqla oxunur...**

Bu da bir tarixdir. Daha doğrusu, tarix-adamdır. 700 ildir ki, insanlar Dantenin ardınca "cəhənnəmin neçənci dairəsində yaşadıqlarını" müəyyən etməyə çalışırlar...

Bunu niyə qeyd etdik? Bir neçə gündür ki, hamı İŞİD yaraqlılarının necə irəliləməsini izləyir. Sanki İŞİD-çilər cəhənnəmin dairəsini genişləndirməklə və yaxud da yeni-yeni cəhənnəmlər yaratmaqla məşğuldurlar...

Onların "zəfər"lərinə bəlkə də biganə qalardıq, ən azı ona görə ki, bütün dünyanın dərdini çəkmək, acısını-ağrısını yaşamaq elə də asan deyil. Amma məsələ də bundadır ki, mədəni insan onlara biganə qala da bilmir...

Bu silahlılar haranı tuturlar, birinci növbədə tarixi abidələri və muzeyləri dağıtmaqla məşğul olurlar. Düzdür, müharibələrin muzeylərə həmişə çox özəl münasibəti olub-müharibələrdə muzeylər qarət olunub...

İndi İŞİD silahlıları haqqında da deyirlər ki, guya onlar şəbəkələrdə yaymaq üçün bir neçə abidəni dağıdır, qalanlarını isə satırlar. Təsəvvür edin ki, adam hətta bu ehtimala da inanmaq istəyir - düşünürsən ki, çox nadir muzey eksponatlarının məhv olmasındansa, onların başqa muzeylərə düşməsi daha yaxşı olardı...

Bizi həm də bunun motivləri maraqlandırır. İŞİD-çilər niyə tarixə qarşı müharibə elan ediblər? Bunu radikal islamçıların baxışları ilə əlaqələndirənlər də var. O ehtimala görə, onlar islamdan əvvəlki tarixi bəyənmir və onu çox özünəməxsus şəkildə inkar edirlər...

Qəribə məntiqdir, deyilmi? Bu məntiqlə gərək xristianlar Qədim Yunanstana və yaxud Romaya aid nə varsa, hamısını dağıtsınlar...

Amma onlar dağıtmadılar və indi də dağıtmırlar. Məhz bunun nəticəsində də az qala bütün dünya böyük bir mədəniyyətə giriş əldə edibdir...

Bu "fenomen"in səbəblərini dinlərin özündə də axtarmağa cəhd etmişəm. İsa peyğəmbər deyirdi ki, dağıtmağa gəlməmişəm... Bəlkə səbəb budur? Amma islamın özündə keçmişlə bağlı hər hansı ikrah yaradan, onu tamam inkar edən detallar varmı?..

Məgər islam özü tarixi Adəmdən, Həvvadan, İbrahimdən, Musadan və İsadan keçirərək gətirib Məhəmməd peyğəmbərə qədər çatdırmırmı?

Deməli, əslində həmin hadisənin kökləri heç də islamda deyil, sadəcə, bəzi ilahiyyatçıların canfəşanlığındadır-onlar islamaqədərki dövrü, o dövrü ki, onu müqəddəs Quran da təsvir edir, elə bir qara rəngdə verirlər ki, insanı bir növ ikrah hissi bürüyür və o, özünün həmin dövrlərlə hər hansı bağlılığının izini tamam itirmək, onu büsbütün inkar etmək istəyir. Məsələ bundadır...

Bəlkə başqa səbəblər də var ki, biz bilmirik? Bir dəfə söhbət zamanı bir nəfər dedi ki, müsəlman dünyasında baş verənlərə təəccüblənməyə dəyməz, çünki müsəlmanlar bir vaxt etmədiklərini indi edirlər və onlar indi xristianlığın ilkin dövrlərinə bənzəyən bir mərhələdən keçirlər...

Biz bunu onda da, elə söhbət zamanı da ciddi arqument kimi qəbul etmədik, indi də etmirik. Əslində dünyada bir neçə islam mövcuddur. Elə islam var ki, onun təmsilçiləri digər insanlarla, müxtəlif mədəniyyətlərlə çox orqanik, həmahəng şəkildə yaşaya bilirlər. Elə insanlar da var ki, əllərinə silah götürüb İŞİD-çilər kimi abidələri və muzeyləri dağıtmaqla məşğuldurlar...

Bəlkə də bunun bilavasitə dinlərlə bağlı olmadığını sübut edən bir detal da var ki, onu mütləq qeyd etmək lazımdır.

Azərbaycanlılar tarixin uzun bir müddət ərzində sistemli şəkildə təhrif edilməsinin və hətta məhv edilməsinin şahidi olan xalqdır. Formal şəkildə də olsa da, Ermənistan həmişə özünü xristian dünyasına aid edib...

Ona görə "formal şəkildə" deyirik ki, bir çox məsələlərin bilavasitə dindən qaynaqlandığını heç biz də qəbul etmirik. Amma Ermənistanda uzun müddət, bu ölkə faktiki olaraq formal dövlətçilik atributları əldə edəndən dərhal sonra tarixə qarşı savaş elan olundu-abidələr, məscidlər və hətta kilsələr söküldü, toponimlər dəyişdirildi, yazılı və maddi tarix tamam təhrif edildi. İndi buna nə deyək? Hər şeyi dinin adına yazaqmı?..

**Təbii ki, bu, absurd olardı. Sadəcə, bir daha qəbul etmək lazım gəlir ki, bir neçə islam olduğu kimi, bir neçə də xristianlıq mövcuddur-elə xristian ölkələri var ki, hansısa səbəbdən tarixi buldozerlərin qabağına verirlər, elələri də var ki, xırda, kiçik qəlpələri muzeylərdə toplayırlar ki, belə bir sərvət itməsin, insanlara qalsın...**

---

**Prezident İlham Əliyevin Binəqədi rayonunda çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının ilk iclasında etdiyi çıxış müzakirə mövzusudur. Xüsusilə də dövlət başçısının məmurlara ünvanlı xəbərdarlıqları, sərt mesajları hakim komandada islahatların anonsu olaraq dəyərləndirilir. Milli Məclisin deputatı, İqtisadi və Sosial İnnovasiyalar institutunun rəhbəri Əli Məsimli ilə digər məsələləri də əhatə edən söhbətimizə bu mövzudan başladıq. Onun prezidentin çıxışına reaksiyası:**

# "Hətta acgözlüyün, sərvət hərisliyinin də bir həddi olmalıdır"

## **Əli Məsimli:** "Belə şəraitdə əvvəlcə müqaviməti neytrallaşdırmaq, sonra islahatlar həyata keçirmək, lazımdır"

- Məncə, prezident İlham Əliyev yeniləşmə islahatlarının anonsunu 2009-cu ildə iqtisadi sahədə keçid dövrünün başa çatması barədə bəyanatı ilə vermişdi. Prezidentin Bakı Dövlət Universitetinin 90 illik yubileyində iqtisadi sahədə keçid dövrünün başa çatması barədə bəyanatı, digər məlum məqamları ilə yanaşı, həm yeni bir keyfiyyət mərhələsinin başlanacağı siqnalı idi. Bu siqnal həm də o demək idi ki, yeni mərhələdə keçid dövrünə xas vəhşi kapitalizm elementlərinə, ədalətsizliklərə, naqisliklərə yer olmamalıdır. Bu, müəyyən mənada yeniləşmə kursunun anonsu idi. Bu təbiidir, çünki davamlı tərəqqi yolu ilə getmək istəyən ölkələr yeniləşmə kursunu həyata keçirməlidir.

***- Sizcə, bu, nə dərəcədə mümkündür?***

- Demokratik yeniləşmənin magistral yolu beynəlxalq praktikadan bəlli olsa da, müxtəlif ölkələr buna öz spesifikliyindən asılı olaraq müxtəlif rənglər qatmaqla nəticənin effektini artıra bilirlər. Məsələn, bir yapondan soruşurlar ki, heç bir təbii sərvəti olmayan kiçik bir ərazidə dünyanın möhtəşəm dövlətlərindən birini qura bilməyinizin əsas sirri nədədir. Yapon cavab verir ki, bunun sirri yaponların çoxunun üçdə bir Yaponiya, üçdə bir çalışdığı təşkilat, üçdə bir də özü üçün işləmək prinsipinə əməl etməsindədir. Yəni deyir ki, insan kapitalından səmərəli istifadə olunmalıdır. Bizdə də bu rasional formuladan istifadə olunmalıdır. Azərbaycanda davamlı inkişafı təmin etməkdən ötrü həm dünyada gözlənilən meylləri, həm də Azərbaycanın resurs, texnoloji, intellektual, sahibkarlıq, işgüzarlıq və s. potensialı nəzərə almaqla ölkədə sürətli artıma təsir imkanları getdikcə tükənməkdə olan neft amilinin aparıcı roluna əsaslanan modeldən regionların davamlı tərəqqisinə təminat yaradan milli iqtisadi inkişaf modelinə - Azərbaycanın "üç amil" prinsipinə əsaslanan optimal inkişaf modelinə keçməsinin zamanı çatıb. Azərbaycanın "üç amil" prinsipinə əsaslanan optimal inkişaf modelinə keçməsi dedikdə, insan kapitalından, zəngin resurs potensialından və əlverişli geopolitik üstünlüklərdən yararlanmaqla, inteqrasiya imkanlarından istifadənin səmərəliliyinin artırılması, innovasiyalı texniki-iqtisadi inkişaf modelinə keçid və bu əsasda Azərbaycanın rəqabət qabiliyyətinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin sürətləndirilməsi nəzərdə tutulur.

***- Əli bəy, bunu həyata keçirməkdən ötrü Azərbaycanın potensialı varmı?***

- Bəli, Azərbaycanın buna potensialı var. Fəqət, bizdə tutduğu postda, etimad göstərilərək ona həvalə edilmiş fəaliyyət sahəsində bilavasitə vəzifəsi olan xalqa xidmətdən daha çox şəxsi məqsədlərinə xidmət edən hissə, oturduğu kreslonu sərvətə konvertasiya edərək harınlamış bəzi şəxslər qanundan yüksəkdə durmaqda davam etməklə davamlı tərəqqiyə mane olurlar. Hər şeyin bir həddi var və olmalıdır. Hətta sərvət hərisliyinin, sərvət xəstəliyinin, acgözlüyün də həddi var və olmalıdır. Amma bəzilərinin bu sahələrdə meyar hissini itirdiyindən acgözlüyün, harınlamanın hüdudsuzluğu insanların hüquqlarının pozulması halları ilə müşayiət olunmaqda davam edir. Deməli, həm də yeniləşmə mərhələsinə keçidə müqavimət davam edir. Belə şəraitdə əvvəlcə müqaviməti neytrallaşdırmaq, sonra islahatlar həyata keçirmək, ya da ki, qeyd etdiyimiz sistemli islahatlara başlayıb bu kontekstdə həmin müqaviməti də aradan qaldırmaq lazımdır.

***- Elə isə dövlət başçısının Dövlət Komissiyasının ilk iclasındakı çıxışı zamanı etdiyi xəbərdarlıqları həmin müqavimətin qırılması istiqamətindəki iradə nümayişi kimi dəyərləndirmək olarmı?***

- Bəli, fikrimizcə prezidentin son xəbərdarlıq və mesajları həmin müqavimətin qırılmasına iradə nümayişi kimi dəyərləndirmək olar. Çünki bayaq dediyimiz kimi, hər şeyin həddi var. Həddini bilməyəni durdurmaq lazımdır. Bəzi aidiyyəti qurumların rəhbər və təmsilçilərinin öz vəzifə borcunu yerinə yetirə bilməməsi, vəzifədən sui-istifadə etməsi, oturduğu kreslonu insanların problemlərinə biganəlik obyektinə çevirməsi və sair sadəcə əhalinin hüquqlarının tapdanması ilə bitmir. Bunlar hər addımda əhaliyə ziyan gətirir. Bəzi himayədə olan işbazlar qiymət artımının hər faizinə görə əhalinin ailə büdcəsinə 170 milyon manat, deməli, üst-üstə milyard manatlarla ziyan vurur. Əhalinin puluna qəsd bir yana qalsın, hələ keyfiyyətsiz, ekoloji baxımdan təhlükəli malları ölkəyə gətirib tökməklə insanların sağlamlığına ziyan vururlar. Keyfiyyətsiz dərmanlarla isə sağlam qalanını da sıradan çıxarırlar. Bütün bunlar həm də genefondumuza təhdid yaradır. Soyğunçu faizlər şəraitində bank kreditlərinin vaxtında qaytarılmaması nəticəsində əhalinin daşınar, daşınmaz əmlakının xeyli hissəsi əllərindən çıxır. Müxtəlif səpkili sui-istifadələr dövlətə külli miqdarda ziyan dəyməsi ilə sonuclanır. Bu azmış kimi son vaxtlar insan taleyinə biganəliyin pik həddinə çatması Binəqədi rayonunda çoxmərtəbəli binada baş vermiş yanğının timsalında bəzi hallarda insan itkisi ilə nəticələndi. Ona görə də həmin müqaviməti mütləq sındırmaq lazımdır. Yaşadığımız mərhələdə dövlətə və millətə ziyan vuranların müqavimətinin qırılması xüsusi aktuallıq kəsb edir. Neftin qiymətinin hazırkı səviyyəsində neft hasil edən ölkələr, o cümlədən Azərbaycan maliyyə itkiləri baxımından ziyan çəkir, neft istehlak edən ölkələrdə isə iqtisadi fəallıq artır. Ona görə də hadisələrin gedişi diqtə edir ki, biz də artıq bundan sonra neftin aşağı qiymətləri şəraitində yaşamağı, işləməyi və inkişaf etməyi və sosial problemlərimizin həllini sürətləndirməyi öyrənməliyik. Korrupsiyaya, inhisarçılığa qarşı effektli mübarizə, kölgə iqtisadiyyatının leqallaşdırılması və vergiyə cəlb edilməsi mümkün olan sahələrini vergiyə cəlb etmək hesabına büdcəyə milyard manatlarla, yəni neftin qiymətinin aşağı düşməsindən gözlənilən itkilərdən qat-qat artıq əlavə vəsait cəlb etmək olar. İsrafçılığa son qoymaq, qənaət rejiminə əməl etmək, az effekti olan iri layihələrə meylliyi azaltmaq, lüzumsuz xərcləri azaltmaq, büdcə vəsaitindən istifadənin səmərəliliyini artırmaqla dövlət vəsaitinə milyard manatlarla qənaət etmək, indikindən daha çox və daha səmərəli işlər görmək olar. Amma bir qrupun çalıb-çapdığı, digərlərinin isə buna baxdığı bir şəraitdə həmin işləri görmək çətinləşir...



**"Bəzi himayədə olan işbazlar qiymət artımının hər faizinə görə əhalinin ailə büdcəsinə 170 milyon manat, deməli, üst-üstə milyard manatlarla ziyan vurur"**

***- Sizcə, illərdir inkişafa, müsbət fəaliyyətə mane olan müqaviməti nəhayət, qırmaq mümkün olacaqmı?***

- Bu, çox çətin məsələ olsa da, haqsızlıqlara qarşı, əhalinin hüquqlarının qorunması naminə görülməsi çox vacib olan bir işdir. Xalqın dəstəyi olan şəraitdə istənilən çətin işin öhdəsindən gəlmək mümkündür. Bu müqaviməti sındırmaq nə qədər çətin olsa da, Azərbaycanın bir dövlət kimi tərəqqisi naminə gələcəyə baxış bunu tələb edir. Qanundan yüksəkdə durub xalqın problemlərinə biganə olanların müqavimətini qırmadan ölkədə yeniləşmə islahatları yüksək effekt verə bilməz. Fikrimizcə, prezident İlham Əliyevin Binəqədi rayonunda çoxmərtəbəli binada baş vermiş yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının ilk iclasındakı çıxışı zamanı məmurların ünvanlarına söylənilən kifayət qədər tənqidi fikirlərə və xəbərdarlıq mesajlarına, hər şeydən əvvəl, bu kontekstdən yanaşmaq lazımdır və prezidentin sözügedən müqaviməti qırmaq istiqamətində başladığı işlər və səylər Azərbaycanın gələcəyinə biganə olmayan bütün qüvvələr və hər kəs tərəfindən dəstəklənməlidir.

**❑ Elşad PAŞASOY**

**Ümid Partiyası İcra Aparatının rəhbəri, politoloq Taleh Əliyev gündəmdə olan son hadisələri partiyanın Mətbuat Xidmətinə şərh edib.**

# "Binəqədidəki hadisə növbəti bir mesaj ola bilər"

## Taleh Əliyev: "Hakimiyyətinin bu dəfə necə davranacağını isə biz yaxın zamanlarda müşahidə edəcəyik"

***- Taleh bəy, may ayında bir neçə səsli-küylü hadisə baş verdi. Bunlardan biri iş adamlarının həbsi idi. Hələ də həbslərin davam etməsi ilə bağlı məlumatlar gəlməkdədir. Baş verənlərlə bağlı nə deyə bilərsiniz?***

- Həqiqətən də əvvəlki aylarla müqayisədə mayda kifayət qədər səsli-küylü hadisələr baş verir. Bildiyiniz kimi, may ayının ilk səsli-küylü hadisəsi Beynəlxalq Bankın işi ilə əlaqədar başladılan iş adamlarının kütləvi həbsi oldu, məsələnin mətbuatda şərhi zamanı məlum oldu ki, sən demə, Mərkəzi Bankın 21 fevral tarixli qərarı daha dəhşətli vəziyyətin qarşısının alınması üçün atılan məcburi bir addım olub. Əks halda ölkədə daha dərin sosial-iqtisadi böhran yarana bilərmiş. Deyilənlər əgər doğurdan da həqiqətdirsə o zaman Mərkəzi Bankın 21 fevral tarixli qərarını hökumətin qabaqlayıcı addımı kimi təqdir etmək olar. Amma Konstitusiya Məhkəməsinin xarici valyuta ilə verilən kreditlər haqqındakı məlum qərarı və hökumətin indeksləşdirmə siyasəti aparmaması həm xarici valyuta ilə kredit götürən vətəndaşların, həm də bütövlükdə aztəminatlı əhalinin maddi vəziyyətini ağırlaşdırdı. Bu isə öz növbəsində neft gəlirlərinin sayəsində son illər ölkədə aparılan yoxsulluğun azaldılması siyasətinin effektini azaltmaqla əhalini kütləvi surətdə yoxsullaşdırır. Baş verənlər olduqca təhlükəli bir tendensiyadır.

***- Mayın 19-da böyük bir faciə yaşandı, faciə ilə bağlı müxtəlif versiyalar irəli sürülür. Versiyalar arasında hadisənin terror olma ehtimalı da irəli sürülür. Hələlik hadisənin baş vermə səbəbləri ilə bağlı dəqiq bir açıqlama yoxdur. Bu barədə siz nə deyə bilərsiniz?***



- May ayının digər mühüm bir hadisəsi isə terror olması ehtimalı çox yüksək olan 19 may faciəsidir. Terror hadisəsi ona görə deyirəm ki, hadisədən bir neçə gün keçməsinə baxmayaraq hələdə hadisənin baş verməsi haqqında rəsmi versiya yoxdur. Bu isə o deməkdir ki, hakimiyyət hadisənin terror olmadığını əsaslandırmaq üçün inandırıcı versiya axtarışındadır. Əgər xatırlayırsınızsa hakimiyyət o vaxt da uzun müddət inadla isbat etməyə çalışırdı ki, ADNA-da baş verənlər terror hadisəsi deyil. Amma zaman keçdikcə məlum oldu ki, ADNA hadisəsi ilə biriləri Azərbaycana mesaj veriblər. Azərbaycan tərəfi də hadisəni öz adı ilə deyəcəyi təqdirdə daha böyük skandal yarana biləcəyini nəzərə alıb, hadisənin terror olmadığını ciddi cəhdlə əsaslandırmağa çalışdı. Çox böyük ehtimal ki, bu dəfə də baş verən hadisə növbəti bir mesaj ola bilər. Azərbaycan hakimiyyətinin bu dəfə necə davranacağını isə biz yaxın zamanlarda müşahidə edəcəyik. Hökmən bunun işartıları özünü büruzə verəcəkdir.

***- Əvvəlcədən Azərbaycan prezidentinin Riqa samitində iştirakı gözlənilsə də, sonda ölkə prezidenti sammitdə iştirak etmədi. Sizcə buna səbəb nə oldu?***

- Öncədən təsdiq olunmasına baxmayaraq Azərbaycan Prezidentinin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının Riqada keçirilən növbəti sammitində iştirak etməməsi ciddi hadisədir. Həqiqətən də çox maraqlıdır, görəsən nə baş verdi ki, prezidentin iş qrafiki dəyişdi və o, belə bir mötəbər, vacib tədbirdə iştirak edə bilmədi. Amma nəyin baş verməsindən asılı olmayaraq Azərbaycan tərəfinin bu mötəbər tədbirdə Xarici İşlər naziri səviyyəsində təmsil olunması, tədbirin açılış mərasimində Almaniya kansleri Angela Merkelin "Avropa İttifaqı Avropa İttifaqına üzvlük yolu axtarmayan və Avrasiya İqtisadi İttifaqında özü üçün rol görməyən Azərbaycanın mövqeyinə hörmət edir" deməsi, ən maraqlısı və ən mühümü isə mayın 21-də Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparması və İlham Əliyev tərəfindən Donald Tuskun ölkəmizə rəsmi səfərə dəvət edilməsi və bu dəvət məmnunluqla qəbul edilməsi faktı bir daha sübut edir ki, Azərbaycan Avropa İttifaqı ilə yollarını ayırmır, Avropa İttifaqı öz növbəsində bu gün də Azərbaycana özünün strateji portnyoru kimi baxır. Amma bu münasibətlərin inkişaf etdirilməsinə əngəl olacaq xeyli problemlər də var. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişaf etdirilməsi üçün Azərbaycan hakimiyyəti ilk növbədə siyasi məhbusları azad etməli, ölkədə söz və ifadə azadlığına, o cümlədən vətəndaşların sərbəst toplaşma hüququna şərait yaratmalı, qarşıdan gələn parlament seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsinə zəmanət verməlidir. Bütün bunlar isə ilk növbədə Azərbaycana lazımdır.



# Gənclərə layihələrin hazırlanmasına dair seminar keçirilib

**Mayın 21-də Ümid Partiyasının gəncləri "Layihələrin hazırlanması" mövzusunda təlim keçirib. Təlimi Ümid Partiyası gənclər təşkilatının fəalı, Bərdə kənd bələdiyyəsinin üzvü Namaz Kərimov keçib. Tədbirin əvvəlində gənclər 19 mayda paytaxtda baş verən faciəni bir dəqiqəlik sükutla yad ediblər.**



Kərimov gənclərə layihənin hazırlanma üsulları, interaktiv metodla layihə yazılışının planlaşdırma mərhələləri, problemin təsvir edilməsi, məqsəd və vəzifələrin müəyyən edilməsi, fəaliyyətlərin planlaşdırılması, layihə yazılışında risk və indikatorlardan istifadə, büdcə tərtibatı və digər məsələlərlə bağlı informasiya verib. İştirakçılar layihə yazılışı ilə bağlı nəzəri biliklər almaqla yanaşı, kiçik qruplarda layihə tərtibatının hər bir mərhələsini praktiki şəkildə hazırlayıblar. Onlara, həmçinin Azərbaycan Gənclər Fondunun layihələri qəbuletmə proseduru və əsas prinsipləri haqqında ətraflı məlumat verilib.

Təlimin sonunda iştirakçılar komanda şəklinə bölünərək üç layihə təqdim edib. Bu silsilədən olan təlimlərin mütəmadi olaraq keçirilməsi nəzərdə tutulur. Arzu edən hər bir gənc iştirak edə bilər.



# Ümidin sədr müavini İsveçə gedir

**Mayın 27-də İsveçin paytaxtı Stokholmda "İsveç Azərbaycan Qarabağ Cəmiyyəti"nin təşəbbüsü ilə 28 Maya həsr olunmuş seminar keçiriləcək. Tədbirə Ümid Partiyasının İctimaiyyətlə əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı da dəvət olunub.**

O deyib ki, tədbiri tanınmış Güneyli siyasi fəal Abdulla Əmir Haşimi (Cavanşir )in başçılıq etdiyi İsveç Azərbaycan Qarabağ Cəmiyyəti təşkil edib: "Eyni zamanda seminardan öncə və sonra çox önəmli görüşlərimiz olacaq. Olduqca yoğun səfər proqramımız var. Belə ki, mayın 26-də İsveç Xarici İşlər Nazirliyində , elə həmin gün parlamentdə, ayın 28-də bir daha parlamentdə millət vəkilləri heyətilə görüşlərimiz olacaq. Mayın 28-də və 29-də da ayrı-ayrı konfranslarda iştirak edəcəyik. Əsas məqsədimiz isə Azərbaycan həqiqətlərini İsveç cəmiyyətinə, özəlliklə siyasi çevrələr çatdırmaqdır. Bildiyiniz kimi son günlər İsveç hökuməti də sözdə erməni soyqırımı ilə bağlı mövqeyinə yenidən baxılacağını bəyan etmişdir. Ümid edirəm ki, bu prosesin inkişaf etdirilməsində səfərimizin də təsiri olacaq. Səfərin millətimiz adına xeyirli və uğurlu olacağını təmənna edirəm".






YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015



# Qazı kəsilən forum

Zamin HACI
zaminhaci@gmail.com

“Mən əlbəttə, günahkaram, amma Tanrıya inanıram. Əgər mən cəhənnəmdə yanacağamsa, qoy bu, yəhudi cəhənnəmi olsun”

**(İsaak Başevis Zinger, “Toybele və onun iblisi” romanından)**

**Araya bina yanğını düşdü, yoxsa ölkəmizin analoqu olmayan penoplast inkişafı sürətlə davam edirdi. Yanğından cəmi bir gün qabaq Bakıda elə bir fısqırıq beynəlxalq tədbir keçirilirdi ki, yalan olmasın, tut ucundan çıx göyə. Tədbirin təkcə adına Çoban Xanış 150 qoyun kəsə bilərdi, əlbəttə, sağ olsaydı. Amma Xanış müəllim ölmüşdür, uşaqları bir-birini doğrayıb zindana girmişdir, beynəlxalq-kainatlararası doğum törəni tipli tədbirlərə Lerik subalp çəmənliklərində ana südü-dağ çiçəyi yeyib böyüyən quzuların kababını gətirmək kimi dövlətçilik ənənəmiz sona yetmişdir. Yazıqlar olsun bizə. Bəlkə də qurbangaha vaxtında sürüylə qoyun basmadığımız üçün evlərimiz yanır, tüstüdən boğuluruq.**

Uzun sözün qısası, Bakıdakı həmin planetar, kainatar, qalaktikar, meqastar, primadonna (bu istənilən yerə girən epitetdir) tədbirin ismi-şərifi belənçik idi: Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu. Dəhşətli bir söz yığınıdır, bunu körpüyə-zada yazıb vursan həmin körpünün hər tağından azı 5 müxalifətçi asmaq olar, heç bir qərbli diplomat köpəyoğlunun ruhu inciməz, qəti narahatçılıq yaranmaz.

Deməli bu dialoq-forumundan indiyə qədər ikisi olubdur. Nəticədə planetdə müsəlmanlarla buddistlər, xaxollarla uruslar, ermənilərlə türklər, pinqvinlərlə akulalar, qarğalar və çətin sınan qozlar, yəhudilər və ərəblər, vəhabilər və şiələr, yaponlar və sunamilər, ağsaqqallar və qaqaşlar, ağbirçəklər və Maral Tahirqızı, ANS və Danabaş TV arasından mühüm dialoq mühiti yaranmışdır.

Burda bir haşiyə çıxım, çünki həmin forum günlərində Bakıda çox gülməli, bir az da qara yumorlu hadisə baş vermişdi. (“Baş vermək” ifadəsindən zəhləm gedir, ona görə burda yazdım ki, hörmətli oxucular bu yazıya nifrət elədiyimi bilsinlər). Bir yəhudi jurnalistin qaza borcu var imiş, “Azəriqaz” isə onun evinə gedən qazı kəsmişdi. Bundan sonra bütün yəhudi icması başda Semyon İxiilov müəllim olmaqla - döşəndilər “Azəriqaz”a, başladılar söyməyə. Ki, bəs bu, yəhudiləri sıxışdırmaqdır. Böyük Vətən Müharibəsində qələbənin 70 illiyini qeyd elədiyimiz bir günlərdə yəhudinin qazını kəsmək gestapoya işləməkdir, açıq-aşkar faşist hərəkətdir. (Bunu özümdən yazdım, Semyon müəllimin yəqin ağlına gəlməzdi. Yeri gəlmişkən, bu Semyon müəllimi yəqin çox görmüsünüz, dövlət tədbirlərində, konsertlərdə-zadda Allahşükür müəllimin böyründə fırlanır, hətta dövlətçilik tələb eləsə kəlmeyi-şəhadəti hare-krişna segahı üstündə oxuyar, yəni, bu dərəcədə dövlətçiliyi sevən adamdır).

Uzun sözün qısası, mənim özümün “Azəriqaz”dan zəhləm gedir, amma heç cür anlamadım ki, borcu olan adamın qazının kəsilməyinin milliyyətə nə dəxli, niyə İxiilov bunu qabardıb idarəni şantaj edibdir. Borcun var, ödə, yoxdur denən nahaq kəsiblər, ver “Azəriqaz”ı məhkəməyə. Yoxsa “biz yəhudiyik, bizim qazımızı niyə kəsirsən” söhbəti yumşaq yazsam demaqogiyadır, yumşaq yazmasam etnik qarşıdurma yaratmaq cəhdidir. İndi bundan sonra həmin İxiilov kimilər Azərbaycanda tolerantlığın qıcqırmasından, dinindən və milliyyətindən asılı olmayaraq hər kəsə dözümlü yanaşılmasından necə danışırlar?

Üstəlik, bu cür söhbətlər yuxarıda adını çəkdiyimiz mədəniyyətlərarası qalaktik forum-dialoquna yaraşan deyildir.

**Mən bir təklif də irəli sürmək istəyirəm. Gələn il yəqin bu tədbirin dördüncüsü də qayırılacaqdır, yaxşı olar bunun adını “forum-dialoq-konfransının seminar sammiti qurultayının plenumu festivalı olimpiadası” qoyaq. Hərtərəfli əhatə olunsun, Semyon müəllim də qaza görə dəxi şikayət eləməsin.**

# “Biz iqtidar olmaq üçün mübarizə aparırıq”

## Atilla Kaya: “Son terror olaylarının qarşısının alınması AKP iqtidarının işidir”

**Türkiyədə 7 iyun seçkiləri öncəsi siyasi vəziyyət gərginləşir. Mayın 18-də Xalqların Demokratik Partiyasının (HDP) Adana və Mersin vilayətlərində yerləşən yerli təşkilatlarının qərargahlarında partlayış baş verib. Adana Seyhan Rayonunda yerləşən partiya qərargahına atılan bomba qərargahda olan 6 nəfərin yaralanmasına səbəb olub.**
**Terror aktının MHP-yə yaxın qüvvələrin törətdiyi versiyası gündəmə gəlsə də, artıq terrorçu saxlanılıb. Bu hadisə siyasi partiyalar arasında, xüsusən də hökumətə qarşı sərt tənqidlərə səbəb olub.**



Atilla Kaya

**Terror aktını törədənin DHKP-C təşkilatının üzvü 32 yaşındakı Savaş Yıldız olduğu bəlli olub.** Ancaq bu olayla bağlı fikirlər müxtəlifdir. Bir çoxları bu hadisənin seçkinin axarını dəyişməyə hesablanmış, HDP-nin təzyiq altında olan bir təşkilat olduğu görüntüsünü yaratmağa hesablanmış hərəkət olduğunu qeyd edir. Eyni zamanda müxalifət bu hadisədə hökuməti ittiham edir.

Ancaq ötən gün DHKP-C təşkilatı bəyanat yayaraq terror hücumunu pisləyib və məsuliyyəti hökumətin üzərinə atıb. Qruplaşma bəyan edib ki, HDP qərargahlarına hücumda onların əli yoxdur. Eyni zamanda bəyanatda “bu günə qədər HDP-yə qarşı 60 hücumu kim həyata keçiribsə, bunu da onlar edib” sözləri qeyd olunur ki, bu da dolayısı ilə AKP hökumətinə işarə hesab olunur.

**Milliyyətçi Hərəkat Partiyasının başqan yardımçısı (sədr müavini) Atilla Kaya** musavat.com-a açıqlamasında HDP binalarına terror hücumunda MHP simvollarından istifadə olunmasının siyasi gərginliyi artırmağa hesablanmış təxribat hesab edir. Ancaq A.Kayanın fikrincə, hücumda iştirak edən tutulsa da, terrorun sifarişçisinin naməlum qalması şübhələrə səbəb olur: “MHP-nin bu hadisələrlə uzaqdan-yaxından bir əlaqəsi yoxdur. Biz hər zaman bütün çıxışlarımızda ifadə etdiyimiz kimi seçkilərin sülh, sabitlik və qardaşlıq içərisində keçməsi üçün əlimizdən gələni edirik. Bu işdə artıq terrorçunun kimliyi də bəllidir. Solçu bir təşkilatın törətdiyi hadisələrlə bağlı həbs olunmuş birisidir. Ancaq burda bir məqam var. Bu təşkilatın özü onsuz da yedək təşkilatdır. Bu təşkilatı müəyyən qüvvələr zaman-zaman gündəmi dəyişdirmək, Türkiyəni qarışdırmaq istəyənlər istifadə edir. Dolayısı ilə burda əsas sual ondan ibarətdir ki, bu terroru bu təşkilat və ya onun üzvü edib, bu aydındır. Bəs bunun arxasında kim var? Çünki o təşkilatın özü bəyanat yayaraq bu terrorla əlaqəsinin olmadığını bəyan etdi. Yəni burda qaranlıq məqamlar da var”.

**Baş verən hadisənin məsuliyyətinin ilk növbədə hakimiyyətin üzərində olduğunu qeyd edən MHP yetkinlisi seçkilər öncəsində bu cür təxribatların gözlənilən olduğunu bildirdi:** “İstənilən halda bu işlərin siyasi məsuliyyəti ölkəni idarə edən hökumətə aiddir. Bir terror hücumu baş verib. Bunun əvvəlcədən ifşa edilməsi, qarşısının alınması, seçkilər öncəsi ölkədə çaşqınlıq, qeyri-sabitlik yaratmaq istəyənlər varsa, bunların qarşısını almaq vəzifəsi hökumətə məxsusdur”.

**Lakin A.Kaya terror hücumlarının seçkilərin nəticələrinə təsir edəcəyini düşünmür:** “Bu olayın seçimlərin nəticələrinə təsir edəcəyini düşünmürəm. Bu hadisəni PKK-nın uzantısı olan partiyanın işinə yarayıb. Bu hadisə onların elektoratını daha da birləşdirib cəsarətləndirib. Dolayısı ilə terror hücumları bu məqsədlə də edilə bilər. Bu vəziyyətə yenə də hökumətin üzərinə məsuliyyət qoyur, hökumət lazımı seçki şəraitini, bərabər mübarizə imkanlarını təmin etməlidir.

Biz seçkilərdə uğurlu nəticə almaq üçün çalışırıq. Seçkilərə qatılan bütün siyasi partiyalar kimi biz də iqtidar olmaq üçün mübarizə aparırıq. Nəticəni isə seçki qutuları açıldığı zaman hamımız görəcəyik".

❑ **KƏNAN**

# Vaşinqton Bakıdan seçim etməyi tələb edir

## Siyasi şərhçinin fikrincə, Malinovskinin Azərbaycana səfərinin Vaşinqton tərəfindən ləğv olunması hakimiyyətə mesajıdır

**ABŞ Azərbaycan hökuməti ilə vətəndaş cəmiyyəti və demokratiya mövzusunda dialoqu dayandırıb. “Turan” İnformasiya Agentliyinin xəbərində deyilir ki, ABŞ dövlət katibinin insan hüquqları üzrə köməkçisi Tom Malinovskinin vətəndaş cəmiyyəti və Qərb institutlarına təzyiqlərin davam etməsini müzakirə etmək üçün Bakıya planlaşdırdığı səfərinin baş tutmamasının səbəbkarı Vaşinqton olub.**



Tom Malinovski

Qeyd edək ki, yerli mediada səfərin məhz Bakının istəyi ilə baş tutmadığı haqda xəbərlər yayılmışdı. Lakin sonradan ABŞ-ın Azərbaycandakı səfirliyi bəyanat yayaraq bunu təkzib etmişdi. İndi isə Dövlət Departamentinin nümayəndəsi səfərin Azərbaycan tərəfdən deyil, Vaşinqtonun ləğv etdiyini bildirib.

**Sitat:** “ABŞ və Azərbaycan bu ilin fevralında dövlət katibinin müavini Viktoriya Nulandın Bakıya səfəri zamanı belə dialoqa başlamaq barədə razılığa gəlmişdi. Lakin biz düşünmürük ki, bu cür dialoq indiki vəziyyətdə səmərəli olsun. Bu, bizim fikrimiz və bizim qərarımızdır”.

Eyni zamanda agentlik yazır ki, Vaşinqtonda bir çox müşahidəçilərin ehtimalına görə, Malinovskinin səfərinin ləğvi düzgün qərardır, çünki indiki durumda Bakı ilə dialoq mənasızdır. Xatırladaq ki, bundan əvvəl - 2013-cü il prezident seçkiləri ərəfəsində Bakı Dövlət Departamentinin digər yüksək vəzifəli nümayəndəsi Tomas Melianı da ölkəyə buraxmamışdı.

İndi isə Vaşinqton özü aidiyyəti üzrə məmurunu Bakıya göndərməyə lüzum görmür. Və bu qərar açıq şəkildə mediaya ötürülür. Bu həm də Bakıya mesaj mahiyyəti daşıyır. Yəni artıq Bakı ilə Vaşinqtonun bu mövzularda danışıqlara ehtiyacı qalmayıb. Nəzərə alsaq ki, Vaşinqton məhz insan haqları və demokratiya kimi mövzuları özünün prioriteti elan edib, o zaman bu addımın arxasında siyasi yükün ağırlığını daha da aydın müşahidə etmək olar. Bəs bu küskün və qəzəbli jestin anlamı nədir? Vaşinqton Bakı ilə danışmaqdan imtina etməklə əlaqələri məhdudlaşdırdığını nümayiş etdirməyə çalışır? Yoxsa hazırkı mərhələdə sözügedən mövzuları gündəmə çıxarmaqla onsuz da gərgin olan münasibətləri daha da pisləşdirmək istəmir?

**Siyasi şərhçi Azər Rəşidoğlu** deyir ki, indiki anda səfərin heç bir önəmi yox idi. Ekspertin fikrincə, hazırda Bakı Qərbin insan haqları və demokratiya mövzusunda bütün tələb və çağırışlarını qulaqardına vurur. Eyni zamanda Azərbaycan hakimiyyəti Rusiya ilə qarşıdurmada konkret olaraq hansısa cəbhədə yer almaqdan imtina edərək manevr edir. Bu isə Vaşinqtonda qəzəblə qarşılanır: “Hakimiyyət siyasi məhbusları azad etmir, Vaşinqton Bakıya qarşı sanksiyaların tətbiqini real saymır. Digər tərəfdən, Bakı Moskva və Vaşinqton arasında seçim edə bilmir”.

**Azər Rəşidoğlu Malinovskinin Azərbaycan iqtidarına qarşı sərt mövqeyi ilə fərqləndiyini qeyd etməklə yanaşı, səfərin məhz Patruşevin Bakıya qəfil səfərindən sonra təxirə salındığına işarə edir:** “Azərbaycan strateji seçimini etmədiyinə görə, Bakıya bu cür təzyiqlər davamlı ola bilər. Artıq necə deyərlər, balanslaşdırılmış siyasətin sonu gəlib və seçim etmək lazımdır. Odur ki, ABŞ Azərbaycanda insan haqlarının pozulduğunu əsas gətirərək, Bakıya təzyiqlərini artıracaq. Maraqlıdır ki, Patruşevin Bakı səfərindən sonra Malinovski səfərini təxirə saldı. Bu artıq açıq mesaj hesab edilə bilər. Bakı müəyyən etməlidir - kiminlə birlikdədir, Moskva ilə, yoxsa Vaşinqtonla”.

**A.Rəşidoğluya görə indi Bakıdan seçim tələb olunur, Azərbaycan hakimiyyəti isə manevr etməyə çalışır:** “Bakıdan seçim tələb olunur. Bakı isə manevr etməkdə davam edir. Güman etmirəm ki, Bakı-Vaşinqton əlaqələri tam qırıla bilər. Riqa sammitində iştirak etməməklə dövlət başçısı Qərbin narazılığını qazandı. Lakin Bakı balans siyasətini davam etdirməkdə israrlıdır”.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015

## Rusiya prezidentinin Azərbaycana səfər qərarının pərdəarxası

# Putini Bakıya gətirən 4 vazkeçilməz səbəb

### İlham Əliyevin Riqa sammitindən imtinasından cəmi bir gün sonra Kreml başçısının Avropa Oyunlarının açılışına qatılacağı haqda xəbər təsadüfdümü? Rusiya liderinin Ərdoğanla görüş fürsəti də gerçəkləşir; Bakı mühüm təmaslar və müzakirələr astanasında...

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərtdoğanın ardınca onun rusiyalı həmkarı Vladimir Putinin də I Avropa Yay Oyunlarının açılış mərasiminə qatılmaq üçün Bakıya gələcəyi dəqiqləşib. Bu haqda Kremlin mətbuat xidmətinə istinadən xəbər yayılıb. Mətbuat xidmətindən o da əlavə edilib ki, Rusiya prezidentinin Azərbaycana səfərinin təfərrüatları barədə daha ətraflı sonra məlumat veriləcək.**

Putinin Bakı səfəri əslində gözlənilən idi. Çünki Rusiya dövlət başçısı aprelin 24-də İrəvan səfər etməklə Türkiyə ilə yanaşı Azərbaycanı də məyus etmiş, Dağlıq Qarabağ məsələsində ədalətli münsif olmadığı barədə ölkəmizdəki, rəsmi Bakıdakı qənaəti möhkəmləndirmişdi.

Yada salaq ki, Putinlə birgə İrəvanda olmuş Fransa prezidenti Fransua Olland aprelin 24-ü axşam Bakıya gəlsə də, Rusiya prezidenti İrəvandan birbaşa Moskvaya qayıtmış, Bakının "könlünü almağa" lüzum görməmişdi. İndi belə görünür, gec də "balansı bərpa eləmək" qərarına gəlinib.

***

**Maraqlıdır ki, Kremlin mətbuat xidmətinin səfərlə bağlı xəbəri yayılandan bir gün qabaq Azərbaycan prezidenti İlham Əliyevin Avropa Birliyinin Riqada keçirilən "Şərq tərəfdaşlığı" sammitinə qatılmayacağı haqda informasiya verilib.** Hakimiyyətə yaxın mənbələr bu addımın Qərbin müəyyən dairələrinin Avropa Yay Oyunları ərəfəsində Azərbaycan əleyhinə apardığı anti-təbliğat kampaniyasına cavab olaraq atıldığını vurğulayıblar.



Azərbaycanı Riqa sammitində təmsil edən Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov isə bu iddianı nə təsdiq, nə də təkzib edib. Qeyd edib ki, imtina prezident İlham Əliyevin iş qrafikinin sıxlığı ilə əlaqədardır. Lakin ardınca təəssüflə onu da əlavə edib ki, həqiqətən Azərbaycana qarşı Qərbdə kampaniya aparılır.

***

**Əlbəttə ki, İlham Əliyevin sammitdə iştirakdan imtina etməsinin dəqiq səbəbləri yalnız rəsmi Bakıya bəllidir.** Ötən təhlillərimizdə də vurğuladığımız kimi, ola bilsin, bir çox məqamlar geniş ictimaiyyətə hələlik məlum deyil və məlum olması üçün də zamana ehtiyacı var. Necə ki, dəfələrlə belə olub. İstisna deyil ki, ölkə başçısı konkret bu məsələdə fərqli və bizim bilmədiyimiz məlumatlardan çıxış edərək Avropa Birliyinə qarşı demarşa imza atıb.

Bu xüsusda diqqətçəkici məqam həm də odur ki, Novruz Məmmədovun açıqlaması ilə eyni gündə məlum olub ki, Riqa sammitinin yekun bəyannaməsində Rusiyanı Krımın işğalına görə sərt şəkildə ittiham edən bəndlər var. Artıq Ermənistan və Belarus təmsilçiləri bəyannaməyə bu formada imza atmayacaqlarını bildiriblər. Azərbaycan prezidenti isə Riqaya getmədiyi üçün, seçim qarşısında da olmayıb təbii ki.

***

**Şübhə yox ki, baş verənləri, ələlxüsus da Azərbaycan və Ermənistan prezidentlərinin sammitlə bağlı davranışını Moskva diqqətlə izləyir.** Bu yerdə yada salaq ki, Riqa sammiti öncəsi Moskva 6 tərəfdaş ölkəni hədələmişdi. Ən maraqlısı da elə Putinin Bakıya gələcəyi barədə xəbərin Azərbaycan prezidentinin Riqaya getməkdən imtina edəndən bir gün sonraya təsadüf etməsidir. Odur ki, sual ortaya çıxır: bu, Kremlin Bakıya etdiyi son reveranslara görə minnətdarlıq jestidirmi? Yaxud Bakının anti-Avropa gedişi Putini Azərbaycana daha yaxın eləmək, onu ölkəmizə gətirmək niyyəti ilə atılan addım olmayıb ki?

Bəlkə də. Ancaq Rusiya prezidentini Bakıya gətirən daha iki imperativ diqqət çəkir: bunlardan biri Ərdoğanın da Bakıda olacağını fürsət bilən Putinin yaranan unikal şansdan yararlanaraq Türkiyə ilə Rusiya arasında son vaxtlar sərinləşən əlaqələri qaydaya salmaq cəhdləri ilə bağlı ola bilərdi. Son saylarımızın birində bu haqda da yazmışdıq. Qeyd eləmişdik ki, Putinin 24 aprel İrəvan səfəri ilə əhəmiyyətli şəkildə zədələnmiş Moskva-Ankara münasibətlərini sahmana salmaq üçün Bakı əlverişli məkan, görüş yerinə çevrilə bilər. Deyəsən belə də olacaq.

***

**Putini Bakıya gətirən dördüncü motiv qismində isə Azərbaycanın Avrasiya Birliyinə qoşulması üçün Putnin İlham Əliyevdən tet-a-tet, şəxsən xahişdə bulunmaq istəyi görünür.** Aydındır ki, Kreml Güney Qafqazın açar ölkəsi olan Azərbaycanı Avrasiya projelərinə qoşmaq, Qərbdən birdəfəlik uzaqlaşdırmaq üçün yollar axtarır.

Ancaq Putinin xahişi yerə də düşə bilər. Nədən ki, Bakının Avrasiya Birliyinə qoşulması üçün əsas şərti çoxdan bəllidir - Moskva İrəvanı Dağlıq Qarabağ məsələsində ciddi dönüş yaratmağa vadar eləməli, heç olmasa, Dağlıq Qarabağ ətrafındakı rayonlar azad edilməlidir.

***

**Rusiya prezidenti Bakı səfərində güddüyü bu hədəflərdən hansına çatacaq? Bəs Azərbaycan və Türkiyənin siyasi qazancları nə ola bilər? Bir azca gözləmək lazım gələcək.**

❑ Analitik Xidmət

# Ermənistan prezidenti Riqada biabır oldu

### Tatarıstan qədər müstəqilliyi olmayan işğalçı ölkənin Avropa Birliyi ilə "tərəfdaşlıq" oyunu fiasko ilə bitdi; ali toplantı İrəvanın Qarabağ məsələsində mövqesizliyini növbəti dəfə ortaya qoydu...

**Kremlin girovluğunda olan və faktiki surətdə Rusiya imperiyasının ucqar quberniyası statusu daşıyan Ermənistanın prezidenti guya Riqa sammitinə qatılmaqla "başını başlara qoşmaq", müstəqil görünmək istəyirdi, amma tələyə düşdü, rüsvay oldu.**

Rusiya tərkibindəki Tatarıstan Respublikası qədər müstəqilliyi olmayan bir ölkənin bu xüsusda Avropa Birliyinin ali toplantısında nala-mıxa vurması təəccüblü olmadı. Bir daha bəlli oldu ki, İrəvan ona dəxli olan heç bir regional və qlobal məsələdə, o sırada təbii ki, Qarabağ məsələsində ciddi söz sahibliyinə malik deyil, olmayacaq da, nə qədər ki, Moskvanın ağzına baxacaq.

Bunu Riqadakı toplantıda Serj Sərkisyanın özünü olduqca ürkək aparmasından, bir gözünün Moskvada olmasından da asanca görmək olardı. Əksər siyasi müşahidəçilərə görə, Riqada da Sərkisyan öz başı üzərində daim Rusiya kabusunu hiss edib. Təbiidir. Çünki Ermənistanın xarici siyasət kursunu xeyli müddətdir məhz Moskva onun əvəzinə müəyyən edir.

***

**Sammitində ən narahat və zəif durumda məhz Ermənistan və onun prezidenti Serj Sərkisyanın olacağını, bu iştirakın simvolik xarakter daşıdığınmı yazmışdıq.** Elə də oldu. Düşmən ölkə başçısının tərəfdaşlıq sammitində iştirakı orada çay paylayan xidmətçinin rolundan artıq əhəmiyyət daşımadı. Əks halda, o, sammitin əsas sənədlərindən olan yekun bəyannaməni orada



Krımla bağlı Rusiya əleyhinə bənd olması səbəbindən imzalamaqdan imtina etməzdi.

Adamdan bu yerdə soruşarlar: yekun sənədə Kremlin qorxusundan imza ata bilməyəcəkdinsə, o zaman toplantıda nə itin azmışdı?..

Məlumat üçün bildirək ki, Ermənistan və Belarus sənəddə Krımı işğala görə Rusiyanı qınayan bəndin çıxarılmasına çalışsa da, bu mümkün olmayıb. Yalnız kompromis kimi belə bir razılıq əldə olunub ki, bəyannamədə iki ölkənin BMT Baş Məclisindəki səsvermə zamanı da eyni mövqe sərgilədiyi qeyd edilsin.

İş də ondadır ki, ötən ilin martında Ermənistan daha 10 "izqoy" ölkə ilə birgə, Kremlin diktəsi altında BMT-də Ukraynanın ərazi bütövlüyü haqda qətnamənin əleyhinə səs verməklə Rusiyadan siyasi asılılığını daha da gücləndirib. Həmin mövqe əlbəttə ki, Riqada fərqli yanaşma ortaya qoymağa mane olacaqdı və oldu da.

***

**Məsələyə Riqa sammitinin iştirakçısı Ukrayna prezidenti Pyotr Poroşenkonun münasibəti də yetərincə ibrətamizdir. Poroşenko deyib:** "Krımın ilhaqı bütün dünya tərəfindən tanınıb. Əgər Belarusun (və Ermənistanın - red.) bunu etiraf etməyə qətiyyəti çatmırsa, bu, onların problemdir, Avropa Birliyinin yox".

Dəqiq və ədalətli dəyərləndirmədir. Ancaq bunlar xüsusən də Ermənistana münasibətdə öncədən bəlli idi. Odur ki, Riqa sammitinin ən mühüm yekunu qismində bunu yazmaq olar ki, sammit həm də 6 tərəfdaş ölkədən hansının nə dərəcədə müstəqil söz sahibi olduğunu əyani nümayiş etdirdi.

Onlardan ən həssas, ən zəif durumda heç şübhəsiz, işğalçı Ermənistandır. O zaman məntiqli sual ortaya çıxır ki, bir politoloqun da sərrast söylədiyi kimi, əgər Serj Sərkisyan ayaqyoluna gedəndə də Putindən icazə alırsa, o zaman bu ölkə ilə hansısa ciddi anlaşma imzalamağın mənası ola bilərmi? Yəni hansısa anlaşma, sənəd imzalansa belə, Ermənistanın yiyəsi Rusiya ilə olmalıdır.

***

**Ermənistanın Rusiyadan nə dərəcədə güclü asılılıqda olduğunu isə Almaniyadan olan avroparlamentar Elmar Brok da dəqiq ifadə edib.** Onun sözlərinə görə, "əgər Ermənistan Rusiyanın dəstəyini itirsə, Dağlıq Qarabağ münaqişəsini Azərbaycan udacaq".

Öz növbəsində Almaniyanın kansleri Angel Merkel Ukrayna böhranının Avropa Birliyinin 6 şərq ölkəsi ilə tərəfdaşlığı daha vacib etdiyini bildirib ki: "Məqsəd bu ölkələrin Avropaya inteqrasiyasını daha da dərinləşdirməkdir".

Ancaq konkret olaraq Ermənistanla inteqrasiyanı necə dərinləşdirmək olar, əgər onun ipi bütünlüklə Moskvanın əlindədirsə...

**Xatırladaq ki, Riqa sammitində Azərbaycanı Xarici İşlər naziri Elmar Məmmədyarov və Azərbaycan Prezident Administrasiyasının rəhbərinin müavini Novruz Məmmədov təmsil edib.**

❑ Zahid SƏFƏROĞLU

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015



# Zəncirvari faciələrin kədəri

Xalid KAZIMLI

**Biz, orta yaşlı insanlarla gənc nəslin faciəvi hadisələrə münasibəti eyni deyil. Binəqədi rayonunda baş verən dəhşətli yanğının qandonduran nəticələri aydın olanda, bu, bir daha üzə çıxdı.**

Gənclər həlak olmuş körpələrə görə çox hiddətliydilər, baiskar və səbəbkarları söyür, qarğayırdılar, hiddətli rəylər, şərhlər yazırdılar. Emosional ovqata qapılıb ağlayanlar da vardı və bu, təbii idi. Çünki faciənin miqyası gerçəkdən böyükdür.

Ancaq yaşlı insanlar bu xüsusda bir qədər təmkinli davranırlar. Baş verən faciə onları kədərləndirsə də, hönkür-hönkür ağlatmadı və çox da təəccübləndirmədi.

Çünki biz son 30 ildə çox böyük faciələr görmüşük. Hələ sovet dövründə baş verən təbii fəlakətlərdə, texnogen qəzalarda çox soydaşımızı itirmişik.

1986-cı ildə Ukraynada baş verən və dünya tarixinə "Çernobıl faciəsi" kimi düşən AES qəzasını yaşamışıq. Orda həlak və şikəst olan minlərlə həmvətənimizin faciəsinə şahid olmuşuq.

1988-ci ildə Ermənistanda baş verən Spitak zəlzələsində daş-divar və torpaq altında qalan insanları xilas etmək üçün İl-76 markalı təyyarədə zəlzələ bölgəsinə gedən 69 xilasedici həmvətənimizin həlak olması faciəsini yaşamışıq. O zaman onlardan yalnız bir nəfər - Fəxrəddin Balayev təsadüf nəticəsində sağ qalmışdı. Azərbaycandan gələn təyyarənin isə ermənilər tərəfindən qəsdən qəzaya uğradılması (dispetçer qülləsindən eniş koordinatlarının bilə-bilə səhv verilməsi üzündən) versiyası həqiqətə nə qədər yaxın olsa da, üstünə gedən, araşdıran olmadı.

1990-cı ildə baş verən 20 Yanvar faciəsi bütün milləti hönkür-hönkür ağlatdı. Qəlbində insanlığı, qanında qeyrəti olan hər bir vətən övladı bu faciəni içindən keçirdi. İnsanlar 40 gün yasdan çıxa bilmədilər. Hər bir ev cənazə çıxmış ailəyə dönmüşdü. İnsanlar toy, ad günü, hər hansı şənlik edə bilmirdilər.

Sonra noyabrın 20-də Qarakənddə ermənilərin törətdiyi terror aktında vertolyotda olan dövlət xadimlərimiz həlak oldu. Millət sarsıldı, yasa boğuldu.

Daha sonra Xocalı faciəsi gəldi. Millətin gözünün yaşı sel oldu axdı. Bu gün o dəhşətli yanğında ölən dörd körpə yoxmu, bax, Xocalıda onlardan on dəfə çox körpə, uşaq həlak olmuşdu və onların faciəsi xalqı kədərə boğmuşdu. Hələ də sızladır.

Sonra o biri rayonların işğalı sıralandı... Sonra şəhid cənazələri, qara tabutlar gəldi...

İtirilmiş rayonlar, yandırılmış kəndlər... İlan mələyən çöllərdə salınmış qaçqın-köçkün düşərgələri... vaqonlara sığınmış insanlar... Şəraitsizliyə, xiffətə tablaşmayaraq az qala kütləvi şəkildə qırılan didərginlər... Xarici donorların yadımına möhtaclıq... Bu faciələrin hamısı da xalqın bağrından keçdi.

4 iyun qiyamında namərdcəsinə güllələnmiş qvardiyaçıların faciəsi təkcə onların ailəsi üçün olmadı, bu, demokratik hakimiyyətin süqutuna da səbəb oldu.

Ard-arda qatarlarda, avtobuslarda, metroda ermənilər və "sadvalçılar" tərəfindən törədilən terror aktlarında qurban gedən yüzlərlə həmvətənimizin faciəsi həm məmləkət insanında xof yaratmışdı, həm də onları qəm-qüssədən xilas olmağa qoymurdu.

1995-ci ildə baş verən "OMON qiyamı"nda yüzdən artıq əsgər güllələndi, bir neçə yüzü məhbəsə düşdü. Onlar dünənə qədər rəşadətlə döyüşmüşdülər. Ağ bayraqlarına belə baxan olmadı.

1999-cu ildə onların bir qrupu da həbsxanada qaldırdıqları qiyam zamanı güllələndilər.

Sonrakı illərdə də dənizdə batan gəmidə 42 soydaşımız öldü. Ailələri pərişan qaldı.

Neft Akademiyasında baş verən terror aktı dünən-srağagün olub, onu yaşlı nəsil də, gənc nəsil də yaxşı xatırlayır.

Axtarsaq, incələsək, bu kimi xalqı sarsıdan, qorxudan faciələrimiz çox olub. Onların hamısını sadalayıb qurtarmaq mümkün deyil.

Bizim nəsil bu cür faciələri görə-görə, içindən keçirə-keçirə gəlib deyə, indi onun 15 günahsız insanın faciəsinə yanaşması bir qədər təmkinlidir.

Söz yox, müasir dünyada texnogen qəzalardan tam sığortalanmaq mümkün deyil, mütləq hardasa, nəsə baş verir və onun faciəvi nəticələri olur.

Ancaq binaların tezalışan materiallarla üzlənməsi üzündən baş verən son faciə heç bir dəftər-kitaba sığan deyil. Ötən ay Binəqədidəki faciənin siqnalı Xətai rayonundan gəlmişdi. Eyni cür yanan həmin binada ölüm olmamışdı, amma bu, bir siqnal idi. Təəssüf ki, o siqnalı eşidən, duyan olmadı. Bu da nəticəsi.

Qoy bu son olsun. Qoy heç olmasa böyüməkdə olan nəsillər ümummilli səciyyə daşıyan faciələri yaşaya-yaşaya böyüməsinlər.

# Tağı Əhmədov YAP-ın Yasamal təşkilatının sədri ola biləcəkmi...

## Sabiq metropoliten şefinin Qərib Məmmədovla mübarizədə qalib olduğu bildirilir; YAP-dan reaksiya gəldi: Mələhət İbrahimqızı: "Yeni sədr seçkisinə qədər təşkilata sədrlik Tağı müəllimə tapşırılıb"

**Son günlər mediada Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin keçmiş sədri, akademik Qərib Məmmədovun Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının sədrliyi uğrunda mübarizə aparması ilə bağlı materiallar dərc olunur.**

İddialara görə, YAP-ın iki tanınmış siması hələ vəzifədə olduqları dönəmdə sədr postunu tutmaq istəsələr də, bu, mümkün olmayıb. Moderator.az-a daxil olan bir maraqlı məlumatda iddia olunur ki, əslində YAP Yasamal Rayon təşkilatının 81 yaşlı sədri Fikrət İsmayılov martın 31-də dünyasını dəyişəndən sonra Tağı Əhmədovla Qərib Məmmədov arasında sədrlik uğrunda savaş başlayıb. Mənbə iddia edir ki, T.Əhmədovun işdən kənarlaşdırılması onun reputasiyasını kifayət qədər zəifl ətdiyindən YAP Yasamal rayon təşkilatına sədrliyinə "qırmızı işıq" yandırılıb. "Amma tale elə gətirib ki, artıq ağır xəstə olan Fikrət İsmayılovun sədr kürsüsünə Qərib Məmmədovun sahiblənəcəyi əvvəlcədən bəlli olsa da xoşbəxtlik son anda ondan da üz döndərib. Belə ki, prezident İlham Əliyev onun rəhbəri olduğu komitəni yerli-dibli ləğv etdi, Üstəlik, ölkə başçısı bir neçə gün keçməmiş keçirdiyi müşavirədə ad çəkməsə də, faktiki olaraq Qərib Məmmədovun rəhbərlik etdiyi qurumun fəaliyyətini ciddi tənqid etməklə onun da YAP sədrliyinə gedən yolunu bağlamış oldu. Yəni YAP-ın həmin rayondakı sədrliyinə iki iddialı namizəd olsa da hələlik onlarrı YAP sədri, prezident İlham Əliyev tərəfindən "qəbuledilməz persona" statuslarını qoruyub saxlayırlar".

**Qeyd edək ki, T.Əhmədova Yeni Azərbaycan Partiyasında vəzifə verilməsi barədə mediada yayılan xəbərlərə bir müddət öncə aydınlıq gətirilmişdi. Partiyanın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev axar.az-a açıqlama verərək bildirmişdi ki, Yasamal rayon təşkilatının vəfat etmiş sədri Fikrət İsmayılovun yerinə kimin seçiləcəyi nizamnaməyə uyğun olaraq konfransın nəticəsinə əsasən müəyyən ediləcək:** "Çox güman ki, Yasamal rayon təşkilatının İdarə Heyətinin vahid qərarı ilə sədr vəzifəsi müvəqqəti olaraq kiməsə həvalə ediləcək. Növbəti konfransa qədər ola bilər ki, müavinlərdən və ya idarə heyəti üzvlərindən kiməsə həvalə edilsin. Konfransda isə artıq sədr seçiləcək. Sədrin vəzifəsinin kimə həvalə ediləcəyi Yasamal rayon təşkilatının İdarə Heyətinin qərarından asılıdır". Xatırladaq ki, YAP-ın Yasamal rayon təşkilatının sədrinin vəzifələrinin konfransa qədər Tağı Əhmədova həvalə olunacağı gözlənilirdi. Sədrin müavini olan T.Əhmədov ötən ilin dekabrından Aparat rəhbəri vəzifəsini daşıyırdı.



Tağı Əhmədov



Mələhət İbrahimqızı

Üstəlik, Bakı Metropolitenin sabiq rəisi Tağı Əhmədovun deputatlığa namizədliyini irəli sürəcəyi barədə də iddialar var idi. "A24.az"ın etibarlı mənbədən əldə etdiyi məlumata görə, ölkə başçısının sərəncamı ilə vəzifədən kənarlaşdırıldıqdan sonra heç bir dövlət qurumuna təyinat almayan T.Əhmədov 2015-ci ilin payızında Milli Məclisə keçiriləcək seçkilərdə namizədliyini verəcək. Onun YAP üzvü kimi namizədliyini Yasamal rayonundan verəcəyi ehtimal olunurdu.

**Məsələ ilə bağlı T.Əhmədov və Q.Məmmədovdan münasibət öyrənməyə çalışsaq da, bu, mümkün olmadı.** Xatırladaq ki, fevral ayının 1-də 67 yaşı tamam olan T.Əhmədov 1998-2014-cü illərdə Bakı Metropoliteninin rəisi vəzifəsində çalışıb. "Fəxri Dəmiryolçu", "Bakı metropoliteni veteranı" döş nişanları, "Şöhrət ordeni" və "Azərbaycan Respulikasının əməkdar mühəndisi" fəxri adı və nişanı ilə təltif edilib. 2005-ci ildən Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvüdür. Bakı metropoliteninin işinin dünya standartları səviyyəsinə çatdırılması sahəsində xidmətlərinə görə "Qızıl Buta" Müstəqil Milli Mükafatına layiq görülüb. 2012-ci ildə ölkənin iqtisadi inkişafında xidmətlərinə və Azərbaycan elminə verdiyi töhfələrə görə akademik Yusif Məmmədəliyev adına medalla təltif olunub.

**YAP-ın Nəsimi təşkilatının sədri, deputat Mələhət İbrahimqızı** Yasamal təşkilatı ətrafında baş verənlərlə bağlı "Yeni Müsavat"a açıqlama verdi: "Yasamal böyük rayondur və YAP-ın Yasamal təşkilatı da ən böyük təşkilatlardan biridir. Ona görə də təşkilat sədri rəhmətə gedəndən sonra sədrlik kiməsə həvalə olunmalı idi. Tağı müəllim də orda müavin idi. Odur ki, yeni sədr seçkisinə qədər təşkilata sədrlik Tağı müəllimə tapşırılıb. Tağı Əhmədov təşkilatda kifayət qədər aktiv şəxslərdən idi, odur ki, ona həvalə olunub". M.İbrahimqızı Yasamal təşkilatında Q.Məmmədovla T.Əhmədov arasında savaşın olması barədə iddiaları qəbul etmədi: "Mən belə şeylərə inanmıram. Bunlar hamısı uydurma məsələlərdir". Xanım deputat T.Əhmədovun deputat olmaq niyyətindən də xəbərsiz olduğunu dedi və bunları şayiə adlandırdı.

❑ **Cavid TURAN**

# Azərbaycanda 19 yaşlı gənc mer seçilə bilərmi...

## Gülağa Aslanlı: "Azərbaycan gəncinin potensialı, heç də amerikalı gəncindən geri qalmır"

**ABŞ-da 19 yaşlı gəncin mer seçilməsi dünya gündəmini zəbt edib. Brandon Paul adlı gənc Amerikanın Merilend ştatının İndian Head qəsəbəsinin meri seçilib. O, hazırda təhsilini onlayn davam etdirir. Paulun illik maaşı altı min dollar olacaq.**

O mer seçildiyi qəsəbəni əvvəlki zamanına qaytaracağına, inkişaf etdirəcəyinə ümid edir: "Əminəm ki, qəsəbəni inkişaf etdirə biləcəm. Çox illər əvvəl, İndian Head inkişaf edən qəsəbələrdən biriydi. Mən bunu geri qaytarmaq istəyirəm. Mən iqtisadi təşviqləri istifadə edib, biznesləri cəlb etmək istəyirəm".

Bu yaşdakı gəncin qazandığı uğurlar bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da maraqla qarşılanıb. Xüsusilə, gənclərə əlavə stimul verib. Doğrudur, Azərbaycanda mer seçkiləri ədalətli keçirilmir, təyinat əsasında olur. Seçkili orqanlara isə yaş məhdudiyyəti qoyulub. Buna əsasən, ABŞ gəncinin yaşı Azərbaycanda yalnız bələdiyyə üzvü olmağa yetir. Belə ki, ölkəmizdə birinci posta 35, millət vəkilliyinə 25, bələdiyyə üzvü olmağa ən aşağısı 18 yaş məhdudiyyəti qoyulub.



Gülağa Aslanlı

Maraqlıdır, seçkilər əsasında olarsa, Azərbaycanda 19 yaşlı gəncin icra hakimi olmaq şansı varmı? **Seçki mütəxəssisi Gülağa Aslanlı** azərbaycanlı gənclərin ciddi işlər görməyə qadir olduqlarını bildirdi: "Seçki Məcəlləsində mer seçkiləri anlayışı yoxdur. Bələdiyyə seçkilərində isə 18 yaş nəzərdə tutulub. Azərbaycan reallığında 19 yaşlı gənc bu vəzifəyə yetişə bilər. Çünki potensial buna imkan verir. Amma qanunlar hələ o səviyyədə deyil. Yaxınlarda ABŞ-da prezident Barak Obama ilə görüşmək üçün 30 gənc seçilmişdi. Bunlarda biri də, Bakıdan köçüb Amerikada yaşayan bir şəxs idi. Bu onu göstərir ki, Azərbaycan gəncinin potensialı, heç də ABŞ gəncinin potensialından geri qalmır. Azərbaycandakı ictimai-siyasi şərait buna mane olur. Gənclərimizin geoloji potensialı daha yüksəkdir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015

**Dövlət başçısının Səbayel rayonundakı "Dostluq" parkının ərazisini zəbt edən villaların sökülməsi ilə bağlı xəbərdarlığının ardından bütün ölkə mətbuatı bu mülklərin sahiblərinin axtarışına başlayıb. Bakı meri və Səbayelin icra başçısı həmin tikintiləri kimin aparmasından xəbərsizdir. Lakin villaların sökülməsi belə, onların sahiblərinin ortaya çıxmasına səbəb olmayıb, kimsə səsini çıxarmayıb. Bəs, görəsən, necə olur ki, milyonlarla manat vəsait hesabına uzun müddətdən bəri tikilən villalardan rayon icra hakimiyyətinin xəbəri yoxdur? Bu villaların kimlərin adına sənədləşdirildiyi necə gizlədilir?**

# Sökülən villaların arasında müxalifət liderlərinin evi varmı?



**Arif Hacılı:** "Bu ərazidə hakimiyyətdəki şəxslərdən kənar kiminsə villası olsaydı, onların adları çoxdan açıqlanardı"



**Sərdar Cəlaloğlu:** "Müxalifətin nəinki villası, heç nəfəs almağa yeri yoxdur"



**Mirmahmud Mirəlioğlu:** "Bakı ərazisində hər kvadratsantimetrdə nəyin olub-olmadığını Hacıbala Abutalıbov və digər icra başçıları əzbərdən bilirlər"



**Fazil Mustafa:** "Pul çox olanda insanlar evinə də sahib çıxmır"

Bu suallara Azərbaycan müxalifət liderlərinin də fikrini öyrənməyə çalışdıq. Bu villalar arasında müxalifət liderlərinə məxsus evlərin olub-olmadığını da soruşduq.

Musavat.com-un suallarını cavablandıran **Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu** bildirdi ki, müxalifətin nəinki villası, heç nəfəs almağa yeri yoxdur: "Bunlar Bakı Şəhər İcra Hakimiyyətinin, onların yaxın adamlarının, yüksək vəzifəli şəxslərin villalarıdır. Necə ola bilər ki, milyonlarla vəsait qoyulub, aylarla, illərlə orada tikinti gedib, ancaq Bakı Şəhər İcra Hakimiyyətinin məlumatı olmayıb ki, bu tikintini kim aparır? Sadəcə olaraq, prezidentin qarşısında özlərinə bəraət qazandırmaq üçün deyirlər ki, bizim xəbərimiz yoxdur. Prezidentin də dediyi kimi, bu tikililər üçün milyonlarla manat pul tələb olunur, bunu sadə müxalifətçi yox, Azərbaycanın hər mənəm-mənəm deyən iş adamları da tikdirə bilməz. Bu villalar ancaq hakimiyyətin yuxarı pillələrində təmsil olunan, qeyri-qanuni yollara külli miqdarda gəlirlər əldə edən şəxslərin villalarıdır. O villaların sökülməsi heç onların vecinə də deyil. Çünki onlarla başqa ərazidə o cür qeyri-qanuni villaları var".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** isə qeyd etdi ki, harada neçə tikili olduğunu, neçə metr boş ərazi olduğunu bütün icra başçıları əzbərdən bilirlər və onların bundan xəbərsiz olması mümkün deyil: "Bu hakimiyyətdə, bu vəziyyətdə, kimlərsə istədiyini edir, sonra isə məlum olur ki, heç kimin, heç nədən xəbəri yoxdur. Bakı ərazisində hər kvadratsantimetrdə nə var, nə yox, Hacıbala Abutalıbov və digər icra başçıları hamısını əzbərdən bilirlər. İcra başçıları dəyişəndə də, onlara məlumat verirlər ki, hansı məhəllədə, hansı küçədə, neçə kvadratmetr boş sahə var. Ola bilər ki, ölkə başçısının bundan məlumatı yoxdur, ona məlumat verməmələri də pis haldır. Ancaq gərək bu məsələdə məsuliyyət daşıyanlar və məlumat verməyənlər cəzalandırılsın. İstənilən halda müxalifət liderlərinin də villası ola bilər, burada qəbahətli heç nə yoxdur. Ancaq sırf bu ərazidə qanunsuz tikilən villalardan birinin müxalifət liderinə məxsus olmasını mümkünsüz sayıram".

**Müsavat başqanı Arif Hacılı** musavat.com-a açıqlamasında qeyd etdi ki, əgər müxalifət liderinin o ərazidə villası olsa idi, bu, həmin an mətbuata çıxarılardı: "Mənə elə gəlir ki, ən kiçik tikilinin belə, kimə məxsus olduğunu Azərbaycan hakimiyyəti bilir və bu ərazidə hakimiyyətdəki şəxslərdən kənar kiminsə villası olsa idi, bu haqda çoxdan açıqlama verərdilər".

**A.Hacılının sözlərinə görə, ölkədə korrupsiya problemini ayrı-ayrı villaları sökməklə həll etmək mümkün deyil:** "Korrupsiya problemini həll etmək üçün əvvəla qanunun aliliyi prinsipinə əməl etmək və vəzifəsində asılı olmayaraq, qanun qarşısında hər kəsin bərabər məsuliyyət daşımasını təmin etmək lazımdır. Eyni zamanda uzun müddət bundan əvvəl əmlak deklorasiyası haqqında qanun qəbul olunsa da, bu günə kimi əmlak deklorasiyaları tələb olunmur. Bunun nəticəsində dövlət məmurlarının, yüksək vəzifəli şəxslərin əldə etdikləri qeyri-qanuni sərvətə nəzarət etmək mümkün deyil. Ölkədə dəyəri milyon manatdan artıq olan on minlərlə villalar var. Amma Azərbaycanda rəsmi olaraq milyonçu olan bir neçə nəfər var. Ancaq reallıqda milyonçuların sayı həddindən artıq çoxdur. Bu vəziyyət nəinki sosial ədalət prinsipini pozur, cəmiyyətdə böyük təbəqələşmə yaradır, eyni zamanda bu vəsaitlərə görə dövlətə vergi ödənmir. Ona görə də bu məsələlərə kompleks yanaşmaq və qanunları tətbiq etmək yolu ilə mövcud sistemin mahiyyətini dəyişdirmək lazımdır. Problemi yalnız bu yolla həll etmək olar".

**Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa** isə bildirdi ki, bu gün səslərini çıxartmayan villa sahibləri sabah da narazılıq etməməlidirlər: "Əgər bu villalar müxalifət liderlərinin olsaydı, onlar çıxıb deyərdilər ki, bu ev mənimdir. Mənim orada evim olsaydı, mən məmnuniyyətlə deyərdim ki, biri mənimdir. İnsanlar niyə evini gizlətməlidir. Əgər bu gün səslərini çıxartmırlarsa, sonradan da narazılıq etməməlidirlər".

**F.Mustafanın sözlərinə görə, qanunvericilik elə şəkildə qurulmalıdır ki, heç kim əmlakını gizlətmək məcburiyyətində qalmasın:** "Təbii ki, sahibsiz villanın olması mümkün deyil. Amma cəmiyyətdə maliyyə amnistiyasına ehtiyac var. İnsanlar maliyyə imkanlarını gizlətməməlidirlər. Mən təklif etmişdim ki, məmurlara da bizneslə məşğul olmaq hüququ verilsin. Çünki, faktiki olaraq hamısı bizneslə məşğuldurlar. Düzdür, villaların sökülməsi də problemdir. Ancaq qanunsuz tikililərin qarşısını almaq üçün bu cür sərt addımlara da ehtiyac var. Bütövlükdə isə qanunvericiliyi bu duruma uyğunlaşdırmağa ehtiyac var ki, insanlara bizneslə məşğul olmaq üçün sərbəstlik yaradılsın və hər kəs də hər şeyi öz adına sənədləşdirsin. Bununla da kimin hansı fəaliyyətlə məşğul olduğu cəmiyyətə daha aşkar şəkildə bəlli olar. Çox təəssüf ki, bizdə bu istiqamətdə belə bir gizlilik, qapalılıq var. Bu da cəmiyyəti narahat edən durumlardan biridir. Hər halda "Dostluq" parkındakı villalar sadə adamların deyil, daha yüksək səviyyəli məmurların olduğuna görə heç kim adının hallanmasını istəmir. Pul çox olanda insanlar evinə də sahib çıxmır, fikirləşir ki, bir ev getsin, ancaq adım hallanmasın".

❑ **Nərgiz LİFTİYEVA**

# Yanan binada kompensasiya mübahisəsi başladı

## Kim evini kirayəyə veribsə, onlara kompensasiya verilməyəcək; kirəkeş jurnalist: "Əgər verilən 1000 manat bizə çatmayıbsa..."



**Bir neçə gün əvvəl Bakıda baş verən dəhşətli yanğına görə zərərçəkmiş şəxslərə ödəniləcək məbləğlə bağlı sərəncam verilib. Yanğın nəticəsində həlak olmuş 15 sakinin hər birinin ailəsinə 15 min manat, xəsarət almış bina sakinlərinin hər birinə 5 min manat, bina sakini olan 56 ailənin hər birinə yanğın nəticəsində zərər dəymiş əmlakına görə ilkin olaraq 20 min manat məbləğində birdəfəlik maddi yardım müəyyən edilib. Qeyd edək ki, həmin binada kirayədə yaşayan və zərərçəkən şəxslər də var idi. Maraqlıdır ki, kirayədə yaşayan və zərərçəkən şəxslərin taleyi necə olacaq? Həmin şəxslərə də kompensasiya ödəniləcəkmi?**

Xatırladaq ki, binada kirayə yaşayan şəxslərdən biri də jurnalist Sevinc Fədai olub. Ölüm təhlükəsi ilə 40 günlük körpəsi ilə üz-üzə qalan jurnalistə ev sahibi sözügedən birinci min manatlıq yardımdan cəmi 300 manat verib. S.Fədai ona ziyan dəydiyini, evdə bir çox əşyaların yandığını və yararsız vəziyyətə düşdüyünü bildirdi: "Biz o evdə kirayə qalırdıq. Ona görə də qeydiyyatda deyildik. Dünən bizi çağırmışdılar ki, gəlin nə əşyalarınız qalıbsa götürün. Belə hiss elədik ki, bizə kompensasiya ödənilməyəcək. Kompensasiya yalnız ev sahiblərinə ödəniləcək. Ev bizim olmadığı üçün bilmirik ki, bizə də kompensasiya ödənilməlidir, ya yox. Ona görə də bu haqda hələ ki harasa müraciət etməmişəm. Həm də başımız hələ də qarışıqdır. Səhhətimizdə problemlər var. Buna görə də bir neçə gün müayinəyə getməliyik. Sadəcə jurnalistlər zəng edib sual verirlər və problemlərimiz bu şəkildə qabardılır. Yəni nə olsa mətbuat vasitəsilə dövlət başçısına ya da aidiyyəti qurumlara çatdırılmaqla bizə nəsə kömək oluna bilər. Qeydiyyata alınma, kompensasiya ödənilməsi ilə bağlı yəqin ki, ev sahibi özü məşğul olur. Heç olmasa bizə o min manat çatardı. Əgər o verilən min manat bizə çatmayıbsa, yəqin ki, kompensasiyada ödənilməz. Amma mən belə başa düşdüm ki, o pul bina sakininə çatmalı idi. Çünki zərərçəkən bina sakini olub. Biz evi tutanda evin əşyaları olsa da, özümüzlə çarpayı, mətbəx əşyaları aparmışdıq. Həm biz işlətmədiyim əşyalarımı balkona yığmışdım. Onların da demək olar ki, hamısı yanıb. Yanmayanlarda yararsız vəziyyətə düşüb".

*Maraqlıdır, əslində necə olmalıdır? Kompensasiya ev sahibi ilə yanaşı orada kirayədə qalan şəxsə də verilməlidirmi?*

**Hüquqşünas Müzəffər Baxış** bildirdi ki, ilk ödənilən 1000 manatlıq yardım əslində ev sahibinə yox, faktiki olaraq orada kirayə yaşayan şəxsə verilməli idi: "Sərəncama görə kim ziyan çəkibsə, həmin şəxslərin çəkdiyi ziyana görə onlara pul ödənilməlidir. Düzdür, sərəncamın məzmunundan belə çıxır ki, faktiki zərərçəkən şəxslərə dəymiş əmlaka görə o zərər ödənilməlidir. Əgər kimsə orada kirayədə yaşayıbsa və onun əmlakına orada ziyan dəyibsə komissiya bütün bu məsələləri araşdıracaq. Mən belə başa düşürəm ki, komissiyanın qərarı ilə həmin şəxslərə də dəymiş ziyan ödəniləcək".

**Ev sahibinin kirayədə yaşayan jurnalistə verilən min manat puldan cəmi 300 manat verməsi məsələsinə gəlincə hüquqşünas bunun düzgün hərəkət olmadığını bildirdi:** "Evin sahibi düzgün hərəkət etməyib. Əgər evin sahibi orada yaşamayıbsa, o min manat faktiki olaraq orada yaşayan şəxslərə verilməli idi ki, onlar dərhal öz problemlərini həll etsinlər. Həm qəbul edilmiş qaydalara görə, həm Azərbaycanın milli mentalitetinə görə evin sahibi kirəkeş qarşı düz hərəkət etməyib. Çünki o min manat pulu bədbəxt hadisə baş verən gün o binada yaşayan şəxslərin problemlərinin həll edilməsi üçün verilmiş puldur və bu pul orada faktiki olaraq yaşayan şəxsə çatmalı idi".

**Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov publika.az-a açıqlamasında deyib ki, yanan binada kirayədə yaşayan ailələr mənzilin sahibi ilə aralarında olan razılaşma sənədini mütləq təqdim etməlidir:** "Biz əmin olmalıyıq ki, onlar həmin binada kirayədə qalıblar. Əgər bina yanan zaman kirayədə kim qalıbsa, bu vəsait (1000 manatı nəzərə tutur - red.) doğrudan da, ona düşür. Kirayədə yaşayan ailələr mənzil sahibi ilə imzaladığı müqaviləni bizə təqdim edən kimi biz onlara vəsaiti ödəyəcəyik. Yaxud qonşular həmin şəxsin o binada kirayədə yaşadığını notarius yolu ilə təsdiqləməlidirlər. Bu halda kirayədə yaşayan və xəsarət alan şəxsə müvafiq kompensasiya veriləcək. Bunun üçün də kirayə qalanla kirayə verən arasında razılaşma protokolu və bu sənəddə notariat kontorlarının imzası olmalıdır".

"Qafqazinfo"nun verdiyi məlumata görə, Hacıbala Abutalıbov bildirib ki, kim evini kirayəyə veribsə, onlara kompensasiya verilməyəcək: "Hadisə zamanı kirayədə yaşayan zərərçəkənlər məhkəməyə müraciət etməlidir və həqiqətən də qonşuların şahidliyi ilə o binada yaşadıqları sübut olunmalıdır. Məhkəmə qərar verəcək ki, 20 min manatlıq kompensasiya kirayədə qalana, yoxsa ev sahibinə verilsin. Məhkəmə qərarına qədər 20 minlik təzminat nə ev yiyəsinə, nə də kirayədə qalan sakinə veriləcək".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015

**"Cənab prezident hər dəfə keçirtdiyi müşavirələrdə yaradılan hər bir şeyin insanlar üçün olduğunu deyir və bütün məmurların insanların xidmətində olması barədə tapşırıqlarını verir. Yəni bütün hallarda ən əsas faktorun insan faktoru olması prezident tərəfindən dəfələrlə vurğulanıb.**

# "Könüllü və məcburi istefalar qaçılmaz olacaq"

Məmurlar da ona görə bu vəzifələrə təyin olunublar ki, insanların xidmətində dursunlar. Təyin olunmayıblar ki, insanları dövlətdən narazı salsınlar. Kim bu yolu tutacaqsa, təbii ki, ali icra hakimiyyətinin başçısı olan cənab prezident öz səlahiyyətləri çərçivəsində həmin şəxsləri tutduğu vəzifədən azad edəcək və sərt şəkildə cəzalanacaqlar".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov** bunları "Yeni Müsavat"ın suallarını cavablandırarkən söylədi. Qeyd edək ki, prezidentin məmurlara ünvanlı sonuncu xəbərdarlığı komandada dəyişiklərin anonsu kimi yozulur və hesab olunur ki, bunun ardınca ciddi kadr islahatlarına başlanılacaq. Binəqədi rayonunda yanan binanın timsalında konkret faciənin baş verdiyini və ardınca Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun adlarının cəzalandırılacaq şəxslər siyahısında çəkildiyini xatırlatdıqda, YAP-çı deputat bildirdi ki, bu barədə konkret fikir söyləyə bilməz: "Bunu cənab prezident müəyyənləşdirir. O, kiminsə işində nöqsan görürsə, dərhal tutduğu vəzifədən azad edir. Bu məsələ ancaq prezidentin səlahiyyətinə daxildir. Mən də mətbuatda müxtəlif fikirlərlə tanış oluram. Burda sadəcə işinin öhdəsindən gələ bilməyən məmurların işdən azad olunmasından söhbət gedir".

**Ola bilərmi ki, etimadı doğrultmayan, vəzifəsinin öhdəsindən gələ bilməyən məmurlar özləri istefa versin? S.Novruzovun bu suala cavabı belə oldu:** "Kim öz ayranına turş deyir? Kim özünün işini nöqsanlı saya bilər? Elələri var ki, bəlkə də nöqsanları var, amma özü belə hesab etmir. Bununla bağlı müxtəlif strukturlar var, araşdırmalar aparırlar və yekunda rəylərini təqdim edəcəklər".

**Deputat Zahid Oruc** isə hesab edir ki, yanğın qəzasından sonrakı Azərbaycan məhz ölkə başçısının qərarları ilə dəyişiklik mərhələsinə qədəm qoyub: "Əlbəttə, hamımızı üzən çoxsaylı insan itkilərdir. Görünür, hökumətin böhran situasiyalarında fəaliyyət qabiliyyəti dinc dövrlərlə müqayisə olunmayacaq dərəcədə fərqlidir. Məsuliyyətin bölüşdürülməsində yaxasını kənara çəkənlər, dünənə qədər səlahiyyət uğrunda amansız mübarizə aparırdılar. Hər bir sahibkar və ya fiziki şəxs potensial qanun pozucusu ola bilər. Çünki burjuaziya xarakterinə görə özünə xüsusi şərait yaratmağa çalışır. Lakin şərtləri və qaydaları hökumət müəyyənləşdirir. Baxın, hər nazirliyin çevrəsində bir tikinti qurumu var. İstisnasız olaraq hamısında dövlətin külli miqdarda vəsaiti və ya xarici investisiyalar həmin strukturların birbaşa özünə ayrılır. Nəticədə əsas dövlət vəzifələrini yerinə yetirmək və Konstitusiya ilə əhaliyə xidmət üçün reqlamentləşdirilmiş funksiyaları həyata keçirməkdənsə, hamının ayrı qayğısı meydana çıxıb. Özlərinə yaxın tikinti-podratçı qurumları yaradıb düşünürlər ki, müvafiq vəsaitləri necə nəzarətdən kənar xərcləsinlər".



**Siyavuş Novruzov:** "Prezident həmin şəxsləri tutduğu vəzifədən azad edəcək və sərt şəkildə cəzalandıracaq"



**Zahid Oruc:** "Ölkə başçısı bu dəfə kənar terror qruplarından və ya təxribatçılardan deyil, məhz qeyri-peşəkar məmurlar tərəfindən zərbə aldı"

**Z.Oruc qeyd etdi ki, tenderin keçirilmədiyi və açıqlıqdan uzaq olan əməliyyatlar isə korrupsiyanın yemi dəməkdir:** "Ona görə biz zamanında ayrıca Tikinti Nazirliyinin yaranması ilə bütün lisenziya, tender, ekspertiza və qəbul hüquqlarının vahid bir təşkilatda cəmlənməsini təklif etmişdik. Bəli, prezident növbəti dəfə xalqın ağrısını öz üzərinə götürdü. Lakin ölkəsini qarış-qarış quran və dünyaya fərqli bir Azərbaycan çıxaran lider bu dəfə kənar terror qruplarından və ya təxribatçılardan deyil, məhz qeyri-peşəkar məmurlar tərəfindən zərbə aldı. Bununla bərabər, arxalandığı xalqa və əzmkar, prinsipial xarakterə dayanan rəhbər başladığı işi heç vaxt yarımçıq qoymayıb. Ona görə könüllü və məcburi istefalar qaçılmaz olacaq. İlham Əliyev "toxunulmaz şəxs yoxdur" mesajı ilə xüsusi indulgensiya hissi və cəzasızlıq mühitində özünü hiss edənlərə qəti xəbərdarlıq etdi".

**Deputat bildirdi ki, gözümüzün qarşısında dövlət rəhbərinin qəzəbindən yaxasını kənara çəkmək uğrunda növbəti savaş başlanıb:** "Beynəlxalq Bankın talanan kredit pulları ətrafında yaranmış vəziyyət də hökumətdə dəyişikliklərin nə qədər zəruri olduğunu sübut edir. Bir sözlə, idarəretmə orqanları transformasiya və yeniləşmə kursu qarşısında olduğunun fərqindədirlər. Baxın, Səfər Əbiyevin başqa bir insanla əvəzlənməsi uzun illər kabinetdən cəbhəni müşahidə edən birisinin vurduğu ziyanlardan xilas olmağın millətimiz və Ali Baş Komandan üçün nə demək olduğunu ortaya qoydu. Ona görə getmək vaxtı çatmış insanlar bilir ki, prezidentin növbəti qərarı nə olacaq. İndi 2003-cü ildən fərqli olaraq böyük iqtisadi-maliyyə resurslarına malik olan, beynəlxalq əlaqələri gücləmiş bir prezidentin gələcək planlarından danışırıq. Heç şübhəm yoxdur ki, vətəndaş haqlarına əməl etməyən, müxtəlif bürokratik mexanizmlərlə insanları "Çin səddi"nin arxasında saxlayanların haqqında keçmiş zamanda danışacağımız günə çox qalmayıb".

❑ **E.PAŞASOY**

# İqtidar və müxalifətdən bir-birinə yanğın ittihamı

## Siyavuş Novruzov: "Bina Müsavat qərargahının 50 metrliyində idi, amma bir nəfər nə yardımçı oldu, nə də bir dəstək verdi..."

**Binəqədidə baş verən yanğın hadisəsi, baş verən itkilər çoxlarının ürəyini ağrıtsa da, hadisəyə yanaşma baxımından bir-birini ittiham edənlər də var. Təəssüf ki, iqtidar-müxalifət baxışındakı ziddiyyətlər Binəqədi faciəsində də özünün göstərməkdədir. İqtidar və müxalifətin faciəyə münasibətdə necə davrandıqları da ayrıca müzakirə mövzusuna çevrilib və yenə ittihamlar səngimir.**

"Müxalifət nümayəndələri Bakıdakı yanğından istifadə edərək dövlətə ləkə vurmağa çalışdı". Bunu AzVision.az-a açıqlamasında **Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Siyavuş Novruzov** deyib. Deputat müxalifət təmsilçilərinin Bakıdakı yanğınla bağlı fikirlərinə münasibət bildirərək deyib ki, onlar Azərbaycan xalqının faciəsindən öz maraqları üçün istifadə etməyə çalışıb. "Bəzi müxalifət nümayəndələri faciə ilə bağlı öz mövqelərini bildirdilər, xalqa başsağlığı da verdilər. Bir qrup müxalifət isə bu hadisədən istifadə edərək dövlətə ləkə vurmaq üçün cəhd etdi. Onların cəhdləri təbii ki, boşa çıxdı. Çünki onlar özləri bu hadisə ilə bağlı heç bir addım atmadılar. Nə bir başsağlığı verdilər, nə də hadisədən zərər çəkənlərin ziyarətinə getdilər. Onlar yanmış binaya yaxınlaşmadılar. Öz kabinetlərində oturub boş-boş bəyanatlar verməklə məşğul oldular. Dövlətimiz isə artıq bu istiqamətdə bütün işləri görüb. Müxalifət bu hadisədə də öz iyrənc əməllərini ortaya qoydu, öz kimliyini nümayiş etdirdi", - deyə Novruzov qeyd edib.

**S.Novruzov "Yeni Müsavat"a açıqlamasında əlavə etdi ki, əslində müxalifət ümummilli məsələlərdə birlikdə olmalı idi:** "Amma təəssüflər olsun ki, bəzi partiyalarda biz bundan sui-istifadə hallarının şahidi olduq. Yəni iqtidar öz üzərinə düşən bütün vəzifələri həyata keçirtdi və keçirtməkdə davam edir. Müxalifət də bundan istifadə etməli deyildi, əksinə, birlikdə, bərabər qaydada problemlərin aradan qaldırılması üçün həmrəy olmalı idi".



**Elman Fəttah:** "Yanğın hadisəsi baş verən anda Müsavat başqanı, həmçinin müavini hadisə yerində olub"

Müxalifətin zərərçəkənlərin yanına gedəcəyi təqdirdə qızışdırıcılıq hərəkətlərində günahlandırılacağı barədə yanaşmalara gəldikdə, YAP-çı deputat razılaşmadı: "Heç kəs heç kəsi qızışdırıcılıqda ittiham edə bilməz. Yanğın hadisəsi Müsavat qərargahının 50 metrliyində idi. Təəssüflər olsun ki, bir nəfər də olsun nə yaxınlaşıb yardımçı oldu, nə də bir dəstək verdi".

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah** isə YAP-çı deputatın dediklərini təkzib etdi: "Yanğın hadisəsi baş verən andan - hələ saat 11 olmamışdı - Müsavat başqanı, həmçinin müavini hadisə yerində olub. Elə həmin an Müsavat başqanı öz facebook səhifəsində hadisəyə münasibətini bildirib. Cəmi 2 saat sonra Müsavat Partiyası yanğın hadisəsi ilə əlaqədar bəyanatla çıxış edib və matəm elan olunması təklifini irəli sürüb".

**Müsavat funksioneri bildirdi ki, yanğın hadisəsinin məsuliyyəti ilk növbədə hakimiyyətin üzərindədir:** "Ona görə ki, gedən araşdırmalar da göstərdi ki, hələ üç il əvvəl "Azadlıq" radiosu bu materialların yüksək səviyyədə yanma riski daşıdığını əyani şəkildə göstərən videomaterial hazırlayıb və həmin materiala minlərlə baxış olub. Bütün bunlara baxmayaraq, hakimiyyətin müvafiq nazirliklərinin və strukturlarının insan həyatına təhlükə yaradan belə bir məsələsinin üstündən keçməsi, binaların kütləvi şəkildə bu materiallarla üzləməsinə şərait yaratması çox təhlükəli bir hal idi. Hökumətin bu kobud səhvi yekunda böyük faciəyə səbəb oldu".

**E.Fəttah onu da qeyd etdi ki, hökumət yanğın hadisəsinə kifayət qədər adekvat reaksiya verməyib:** "Məsələyə dərhal ciddi reaksiya verməli idilər. Əvvəl buraxdıqları kobud səhvləri manipulyasiya, yaxud imitasiya etmək yox, rəsmi şəkildə düzəltmək lazım idi. Burada hansısa "JEK" müdirinin, üçüncü-dördüncü dərəcəli icraçıların həbsi yox, birbaşa hökumət səviyyəsində məsuliyyət daşıyan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi kəskin şəkildə qoyulmalı idi. Bir halda ki, ölkə başçısı hadisə ilə bağlı keçirilən müşavirədə faciənin böyüklüyünü etiraf edir, bu məsələyə ayrıca vaxt ayırır, o zaman məsuliyyətə cəlb olunan insanlar "JEK" müdiri, yaxud hansısa icraçı yox, elə o müşavirədə iştirak edən hökumət nümayəndələri olmalı idi. Əslində bununla cinayətin ört-basdır edilməsinə cəhd edilir ki, bu da yolverilməzdir".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015


Məhəmməd Türkmən
musavat.com

# Yanan bina: terror, yoxsa təsadüf?

## Yanğınla bağlı Vasif Talıbovun qohumu həbs edildi; Xətaidəki oxşar faciə ilə bağlı da 3 nəfər saxlanılıb; istintaq təxribat və terror versiyası üzərində də işləyir

**15 nəfərin həyatına son qoyan, 50 nəfərin yaralanması ilə nəticələn yanğınla bağlı istintaq gedir. Binadakı yanğının hansı səbəbdən baş verdiyini istintaq ortaya qoymalıdır. İstintaq bir çox məsələlərə aydınlıq gətirməli, çox çətin suallara cavab verməlidir. Binanın üzlüyünə qatılmalı olan və tez alışmasının qarşısını alan maddəni istehsalçının niyə istifadə etməməsindən tutmuş, qəsdən yandırılma fərziyyəsi də diqqətlə yoxlanılmalıdır. Yanğından sonra prezident yanında Dövlət Komissiyasının ilk iclasında baş prokuror Zakir Qaralov deyib ki, qəsdən yandırılması fərziyyəsini istisna etmirlər.**

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış** musavat.com-a bu fərziyyənin yoxlanılmasının mümkünlüyü haqda fikirlərini açıqlayıb:

"Qəsdən yandırılma versiyası hökmən araşdırılmalıdır. Bu gün Azərbaycan elə bir durumdadır ki, hər bir şey ola bilər. Fridrix Engels deyir ki, insanlar təbiət üzərində qazandıqları hər hansı qələbəyə sevinməsinlər, təbiət həmin qələbələrin əvəzini onlardan ikiqat çıxır. Azərbaycanın məmurları düşünür ki, insanları əzməklə, korrupsiyaya qurşanmaqla, pul oğurlamaqla kef edəcəklər, cəmiyyət isə baxacaq. Bilmirlər ki, cəmiyyət aqressiv inkişaf qanunu ilə inkişafdadır, cəmiyyət oğruluqların, cinayətlərin qarşısını almaq üçün nəsə düşünəcək. İlk növbədə yanğın texniki ekspertizası təyin olunmalı, yanğının başvermə səbəbi müəyyən olunmalıdır".

**M.Baxış ölkədə baş vermiş yanğınla bağlı obyektiv rəy verə biləcək ekspertizanın yoxluğunu qeyd etdi:** "Obyektiv araşdırma aparılması üçün yanğının nədən baş verdiyi müəyyən olunmalıdır. Əgər müəyyən olunsa ki, yanğın kənar müdaxilə nəticəsində baş verib, deməli, bu, qəsdən törədilib. Dövlət Komissiyasının iclasında dedilər ki, ilk dəfə belə bir hadisə 2012-ci ilin dekabrında Sumqayıtda baş verib. Deməli, hüquq mühafizə orqanlarının hələ o zamandan məlumatı olub ki, poliuretanla üzlənən binalar təhlükədədir. Hər bir an böyük təhlükə ola bilər. Buna görə də vicdanlı ekspertin verəcəyi rəy sonda olduğu kimi ictimaiyyətə təqdim olunsun".

M.Baxış ölkədə yanğınla bağlı rəy verə biləcək mütəxəssislərin biliklərinə şübhələrinin olduğunu gizlətmir. Qeyd edir ki, digər tərəfdən də həmin mütəxəssislərə çox ciddi təsirlər olacaq və nəticədə qeyri-obyektiv rəy ortaya çıxacaq.

Binada baş verən yanğının qarşısının alınması üçün əraziyə cəlb edilən yanğınsöndürən briqadaları xüsusi tərkibli mayedən istifadə edib, bu gün isə binanın üzlüyü sökülür. Bu şərtlər yanğınla bağlı obyektiv rəy verilməsinə əngəl yaratmayacaq ki?

**M.Baxış deyir ki, yanğınla bağlı texniki ekspertizaya bu şərtlərin təsiri minimaldır:** "Yanğın benzinlə, qazla törədilib, yoxsa zibildən olub, bunu ekspertiza müəyyən edəcək. Bu şərtlərin təsiri yox səviyyəsindədir. Mütəxəssislər yanğının harada və nədən baş verdiyini müəyyən edə bilirlər. Mütəxəssislər xüsusi biliyə malik olan şəxslərdir, yanğının hansı nöqtədən baş verdiyini müəyyən edə bilir".

**Yanğın zamanı 15 şəxs həlak olub. Onlardan yalnız bir nəfər özünü binadan atıb.** Həmin şəxs binada kirayədə yaşayan Yaşar Nəcəfovdur. O, Azərbaycan Texniki Universitetini bitirib. Yunan-Roma güləşi üzrə dəfələrlə regionlararası yarışlarda birinci yerə çıxıb. Allah rəhmət eləsin. İstintaq idmançının binadan niyə pilləkənlərlə çıxmaq əvəzinə özünü atması versiyasına diqqət etməlidirmi? Y.Nəcəfov oradan atıla bilərdimi?

**M.Baxış deyir ki, məsələ hərtərəfli araşdırılmalıdır:** "Bu versiya araşdırılmalıdır. Bilirsiniz ki, baş prokuror Dövlət Komissiyasının iclasında dedi ki, onlarda yanğının necə törədilməsi haqda versiyaları var və Milli Təhlükəsizlik Nazirliyi ilə bu məsələni araşdırırlar".

Mümkündürmü ki, binada yaşayan kirayəçilərin mənzillərini müəyyən edib onun mənzilinə bəhanə ilə giriblər, mənzilin pəncərəsindən tezalışan üzlüyü yandırıb kirayədə yaşayanı da aradan götürüblər? Sonradan bu əməlin xoş-zor şahidi olan kirayəşini aradan götürmək üçün yanğın zamanı əmələ gələn zəhərli qazdan zəhərlənmə və ya binadan tullanma kimi qiymətləndirilməsinə süni əsas yaratsınlar?

**M.Baxış deyir ki, kifayət qədər şübhələr olacağı təqdirdə, bu fərziyə də araşdırılmalıdır:** "İdmançının özünün 8-ci mərtəbədən atmasının səbəbləri araşdırılmalıdır. İdmançı özünün 8-ci mərtəbədən atmasının təhlükəsini dərk etməli idi. İdmançı niyə qaça-qaça binadan çıxmayıb? Yəqin ki, istintaq bu fərziyyəni diqqətə götürəcək və araşdıracaq".

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abdutalıbov da "Yeni Müsavat"ın bugünkü sayında müsahibəsində yanğının qəsdən törədilməsini istisna etməyib. Deyib ki, bu, istintaqın araşdıracağı məsələdir.** "Komissiyanın araşdırmasında bu ehtimal da var. Hər bir fikir, ideya, ehtimal hamısı bir-bir yoxlanılır. Tam məlumatı hüquq mühafizə orqanları verəcək" - deyə Hacıbala Abutalıbov bildirib.


Müzəffər Baxış

Qeyd edək ki, Bakıda yanğın baş vermiş binanın fasadının təmir olunmasında iştirak edən "Global Construction" şirkətinin rəhbərinin ifadəsinə görə istifadə olunan materiallar Türkiyədən alınıb. Ədliyyə Nazirliyinin ekspertiza institutunun və Azərbaycan Milli Elmlər Akademiyasının Kimya İnstitutunun da mütəxəssisləri istifadə olunan kimyəvi materialları araşdırırlar. İlkin əməliyyat məlumatlarına görə, materiallara hansısa məhlul qatılmayıb. Araşdırmaya məlum olub ki, bu materialın arasında izolyasiya materialı yerləşdirilməlidir. Bu haqda Z.Qaralov yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının ilk iclasında demişdi. Baş prokuror çox maraqlı bir faktı da açıqlamışdı. Demişdi ki, "Global Construction" tərəfindən görülmüş işlər nəticəsində daha iki hadisə - 2012-ci il dekabr ayında Sumqayıt şəhərində və 27 fevral 2015-ci ildə Xəzər rayonunun Buzovna qəsəbəsində baş verib. Yada salaq ki, daha bir poliuretan üzlüklü binanın fasadında yanğın Xətai rayonunda, 2015-ci il aprelin 11-də baş verib.

**Baş prokuror həmçinin istintaq əməliyyat qrupu tərəfindən 100 nəfərdən artıq şahidin dindirildiyini, müxtəlif ekspertizalar təyin edildiyini, qəsdən yandırılması fərziyyəsinin də araşdırıldığını vurğulamışdı.**

Baş vermiş yanğınla bağlı daha bir nəfər həbs olunub.

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, mayın 19-da Binəqədi rayonunda yaşayış binasında baş vermiş yanğınla əlaqədar binanın "poliuretan" materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirməli olan 2012-2013-cü illərdə Binəqədi rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Bundan başqa, Bakının Xətai rayonunda yaşayış binasında baş vermiş yanğınla bağlı 3 nəfər həbs olunub.

Baş Prokurorluğun mətbuat xidmətinin məlumatına görə, 2015-ci il aprelin 10-da Bakı şəhəri, Xətai rayonu, Zığ yolu küçəsi 16 saylı ünvanda "TNH" şirkəti tərəfindən fasadında "poliuretan" materialla üzləmə işləri aparılan 9 mərtəbəli yaşayış binasında ağır nəticələrə səbəb olan yanğının baş verməsi faktı üzrə Fövqəladə Hallar Nazirliyinin Əməliyyat-İstintaq İdarəsində başlanmış cinayət işi Binəqədi rayonunda yaşayış binasında baş vermiş yanğınla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq edilən cinayət işinə birləşdirilməklə vahid icraatda istintaqı davam etdirilir.

Cinayət işi üzrə aparılan baxış, axtarış, götürmə istintaq hərəkətləri ilə "TNH" şirkətinin fəaliyyətinə, istehsal etdiyi "poliuretan" məmulatının keyfiyyət və istehsal texnologiyasına dair zəruri materiallar, həmçinin iş üçün əhəmiyyət kəsb edən digər sənədlər müvafiq qaydada maddi sübut kimi götürülüb.

**Ağırlaşdırıcı hallarda vəzifə səlahiyyətlərindən sui-istifadə edərək yanğın təhlükəsizliyi qaydalarını kobud surətdə pozaraq Xətai rayonu ərazisində yerləşən qeyd edilən yaşayış binasına və bina sakinlərinə külli miqdarda maddi ziyan vurulmasına səbəb olan əməllərinə görə "TNH" şirkətinin fəaliyyətinə və görülən işlərə faktiki rəhbərliyi həyata keçirən Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov CM-nin 225.2 (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Nəsimi rayon məhkəməsinin qərarları ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.** AzPolitika xəbər verir ki, Qəzənfər Novruzov Naxçıvan MR Daxili İşlər nazirinin müavini, general-mayor Səbuhi Novruzovun qardaşıdır. Səbuhi Novruzov isə MR Ali Məclisinin sədri Vasif Talıbovun bacısının həyat yoldaşıdır.

Q.Novruzov 2013-cü ilin sonlarında icra başçısı Xaləddin İsgəndərov tərəfindən vəzifəsindən azad olunub.

"Qafqazinfo" xatırladır ki, Qəzənfər Novruzovun qardaşı Bakı Şəhər Yaşıllaşdırma İdarəsinin rəisidir.

Q.Novruzov əvvəllər aptek müdiri, daha sonra Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini, sonra da Binəqədi rayon icra başçısının müavini vəzifələrində çalışıb.

**Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyev Bakıda baş vermiş dəhşətli yanğınla bağlı keçirdiyi sonuncu iclasda bu faciənin günahkarlarının kimliyindən asılı olmayaraq cəzalandırılacağını bildirmişdi.**

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 111 (6139) 23 may 2015

# Dikdaban ayaqqabının fəsadı gözəlliyindən çoxdur

## Belə ayaqqabıları əvvəllər kişilər də geyinib; **Adil Qeybulla:** "Ayaqqabı nə qədər hündürdüsə, bir o qədər zərərlidir..."



**Hündür və qədd-qamətli görünmək üçün qadınlar çox vaxt dikdaban ayaqqabılar geyinir. Bu ayaqqabılar qadınlarda özünəinam hissi yaratdığı kimi, kişilərin də diqqətini cəlb edir. Dikdabanlı xanımlar hansı geyimdə olmasından asılı olmayaraq daha eleqant və cəlbedici göründüyünü düşünmürlər.**

Xanımların bu cür ayaqqabılarda çox rahat şəkildə gəzdiyini görən kişilər hər bir işi, çətinliyi bacarsalar belə, dikdaban ayaqqabının üzərində yeriməyi heç vaxt bacara bilmədiklərini etiraf ediblər. Ancaq nə qədər təəccüblü görünsə də XVIII əsrə qədər dikdaban ayaqqabıları qadınlarla yanaşı, kişilər də geyinib. XVII əsrdə jokeylər (at sürənlər) ayaqlarını üzəngidə rahat tutmaq üçün hündürdaban ayaqqabılardan istifadə ediblər.

Belə ki, dikdaban ayaqqabının fərdi istifadə sayəsində ortaya çıxdığına inanan mütəxəssislər misirli cütçülərin torpağa batmamaq üçün ayaqqabılarının altına topuq taxırdılar. Hökmdarlar, insanların mənsub olduqları siniflərin təyin olunması üçün topuq boylarını təyin edən əmrlər çıxarırdı. Ən hündür dikdaban ayaqqabılar ancaq köklü ailələr tərəfindən geyilə bilərdi. Qırmızı topuqların da yalnız köklülər tərəfindən istifadə edilməsinə icazə vardı.

XVIII əsrdən isə yalnız qadınlara, o da hündürlüyü yalnız 10-12 santimetrə çatan dikdaban ayaqqabı geyinməyə icazə verildi. Bu ayaqqabıların qadınlarda zəriflik göstəricisi olduğuna inanılırdı. Müasir dövrümüzdə də dikdaban ayaqqabılar bütün dövrlərdə olduğu kimi, öz aktuallığını saxlayır.

Ancaq gözəl, cazibədar görünmək üçün geyindiyimiz, saatlarla üzərində durduğumuz dikdabanlı ayaqqabıların sağlamlığımıza ziyanlı tərəfləri də var. Belə ayaqqabıların gündə 1 saat istifadəsi dar bir ayaqqabının içində keçirilən 12 saata bərabərdir. Ayaqların dikdaban içində əyilməsi baldır əzələlərinin qısalmasına və sıxılmasına səbəb olur. Ayaq biləyi əzələləri bədənimizdə ən sağlam yerdir. Bu əzələlər yeriyən vaxt bədənin ağırlığının 3-9, qaçan zaman isə 7 qat ağırlığında yük daşıya bilər. Ancaq dikdabanlarda ayağın önə doğru əyilməsi ayaq əzələlərinin qısalmasına və yararsız hala düşməsinə səbəb ola bilər. Bədən ağırlığının 60 faizi topuqda, 40 faizi isə barmaqlarda daşınır. Ancaq dikdabanlarda bütün yük barmaq uclarına düşür və yaralanmalara, sümük çıxılmalarına gətirib çıxarır.

Araşdırmalar göstərib ki, hündürlüyü 9 santimetrdən çox olan dikdabanlar ayaq damarlarının qocalmasına və dağılmasına səbəb olur. Belə ayaqqabılarla gəzərkən ayaq damarları güclü təzyiq altında qalır. Britaniyalı alimlər isə 14 nəfər gənc və sağlam qadını təcrübəyə cəlb ediblər. Qadınlara tapşırılıb ki, dikdabanlarda ayaqlarını necə hiss etdiklərini hissləri açıqlasınlar. Belə ayaqqabılarda özlərinə məxsus yerişlə gəzsinlər. Alimlər həmin qadınların dizlərindəki damarların formasını araşdırıblar. Əldə edilən nəticələr göstərib ki, dikdaban ayaqqabılarda damarlara düşən təzyiq artır və nəticədə damarlar genişlənir. Damarlar yaşlı insanların damarlarına bənzəyir. Həmçinin, dikdaban ayaqqabılar başqa oynaqlara, o cümlədən baldırla pəncəni birləşdirən və çanaq-bud oynaqlarına pis təsir göstərir, gövdənin vəziyyətini dəyişir. Bütün bunlar isə kürək ağrılarına gətirib çıxarır.

Psixoloqlara görə, dikdaban geyinən qadınları özlərini daha güclü və daha yüksək əhval-ruhiyyədə hiss edirlər. Dikdaban ayaqqabılı qadın özünü şahzadələr kimi hiss edir və o an dünyanın ən gözəl xanımı olduğunu düşünür. Bəzən də stressi atmaq üçün dikdaban ayaqqabılar geyinirlər.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** dikdaban ayaqqabıların ayaqların fizioloji işləmə prinsiplərini pozduğunu dedi: "Belə olan təqdirdə isə həmin şəxslərdə venaların problemləri ortaya çıxa bilər. Bu ona meylli şəxslərdə ola bilər. Biz bilirik ki, ayaqda normada fizioloji tağ var. Bu ayaqdan zərbənin yumşaldılmasını nəzərdə tutub. Ona görə də yastı ayaqlarda bunu daha çox hiss etmək olur. Onlar tez yorulur. Dikdaban ayaqqabı geyinməyə məşq etmək lazımdır. Həm də bu istənilən halda fizioloji deyil. Hündürdaban ayaqqabılar nə qədər hündürdüsə, o qədər də zərərli hesab olunur. Yəni skeletə, onun hərəkətinə, ayaq addımlama zamanı vurulan zərbələrin ötürülməsinə təsir edir. Bu proses bütövlükdə skeletdə nəzərə alınıb".

**Mütəxəssislər dikdaban ayaqqabı alarkən bir neçə vacib məqamı qeyd edirlər. Belə ki, bu ayaqqabıların ayağa oturmasına diqqət yetirilməli, həddindən artıq dikdaban, ucubiz və dar olanlara, ümumiyyətlə yaxın gedilməməlidir. Ayağın baş barmağı ilə ayaqqabının ucu arasında 1 santimetr boşluq olmalıdır. Dikdaban ayaqqabını çıxartdıqdan sonra adi idman ayaqqabısı ilə 30-45 dəqiqə hərəkət edilməli, gündə ən azı 2 litr su içilməlidir. Bu sadə şərtlərlə hündürdaban ayaqqabılarınızı sağlam şəkildə uzun illər geyə bilərsiniz.**

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*


## Xırdalan dairəsindəki tunel bu gün bağlanır

**Avropa Oyunları öncəsi nəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək məqsədilə Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunun 11-ci kilometrliyində yerləşən avtomobil tunelində də yenidənqurma işlərinin həyata keçirilməsi planlaşdırılır.**

Lent.az-ın "Azəryolservis" ASC-yə istinadən məlumatına görə, Xırdalan dairəsindəki avtomobil tunelinin yalnız Sumqayıt şəhəri istiqamətində olan hissəsi təmir işləri ilə əlaqədar şənbə günündən bazar gününə keçən gecə nəqliyyatın hərəkəti üçün qısa müddətə bağlanacaq.

Burda hərəkətin intensivliyi nəzərə alınaraq təmir işləri ancaq bazar günü həyata keçiriləcək və tunelin bu hissəsi bazar ertəsi günü səhər erkən saatlarında nəqliyyat vasitələri üçün tam açılacaq.

Təmir işləri zamanı tunelin asfalt-beton örtüyünün yenilənməsi nəzərdə tutulub. Sumqayıt şəhəri istiqamətində hərəkət edən nəqliyyat vasitələri Xırdalan dairəsinin yan yolundan istifadə etməklə hərəkətlərinə davam edə bilərlər. Tunelin digər hərəkət hissəsinin təmiri işləri isə növbəti istirahət günü həyata keçiriləcək.

## Bakıda yol polisindən qaçmaq istəyən sürücü qəza törətdi

**Bakıda avtoxuliqanlıq edərək yol polisindən qaçmaq istəyən sürücü qəza törədib. "Report" xəbər verir ki, Yasamal rayonu ərazisində "5 mərtəbə" adlanan yerdə yol polisinin əməkdaşları "BMW" markalı maşına "saxla" işarəsi veriblər. Amma sürücü hərəkəti davam etdirərək qaçmağa çalışıb.**

Yasamal rayonu "Sovetski" adlanan ərazidə isə sürücü idarəetməni itirərək maşını yol kənarındakı tikilinin divarına çırpıb.

Qəza ilə bağlı araşdırmalara başlanılıb. Sürücü izahatının alınması üçün polis bölməsinə aparılıb.


**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ermənilər Avropa Oyunlarına təhlükə yarada bilərmi?

**Azərbaycan Bakıda keçirilən Birinci Avropa Yay Oyunlarına hazırlıqları davam etdirdiyi bir zamanda torpaqlarımızı illərdir işğalda saxlayan düşmən ölkə və onların havadarlarından vaxtaşırı şantaj və təxribatçı mesajlar eşidilir, hərəkətlər müşahidə olunur.**
**Düşmən bir müddət öncə Azərbaycanın tank hücumuna hazırlaşdığı barədə iddialar səsləndirdiyi halda, indi də əksini iddia edir.**



**Ermənistan müdafiə nazirinin birinci müavini David Tonayan** bildirib ki, ölkəsinin silahlı qüvvələri Bakıda keçirilən ilk Avropa Oyunları zamanı Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətin gərginləşməməsi üçün əlindən gələni edəcək. "Bakıda ilk Avropa oyunları keçiriləcək və Ermənistan Silahlı Qüvvələri oyunların bitməsinə qədər öz təmkinliyini qoruyacaq. Biz hazırda da təmkinlik nümayiş etdiririk, cəbhədə vəziyyəti gərginləşdirmirik" - deyə nazir müavini vurğulayıb. Erməni hərbçi hiyləgərliklə Ermənistanın təxribatçı hərəkətlərindən və işğalçılıq missiyasından diqqəti yayındırmağa cəhd edir. Ancaq faktiki olaraq özünü yandırıb. Belə ki, adətən, Azərbaycanla Qarabağdakı "ordu"nun üz-üzə qaldığını iddia edən ermənilər bu dəfə qarşı tərəfin kim olduğunu etiraf edib.

Xatırladaq ki, Avropa Oyunları Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən keçirilir. 12-28 iyun tarixləri arasında keçiriləcək Oyunlarda 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançının yarışacağı gözlənilir. Yarışlarda erməni idmançılarının da iştirak edəcəyi bildirilir .

Bəzi erməni müşahidəçiləri bu nisbi sakitliyi "Azərbaycanın Avropa idman federasiyalarını hürkütməmək istəyi" ilə bağlayırlar. Tonoyan isə deyir ki, ola bilər ki, Azərbaycan tərəfi bu dövrdən öz qüvvələrini yenidən qruplaşdırmaq üçün istifadə edəcək və olimpiadadan sonra yenidən gərginlik arta bilər. Azərbaycanın Müdafiə Nazirliyi isə qoşunların təmas xəttində təxribat törədən tərəfin elə erməni ordusu olduğunu bildirir. Müdafiə Nazirliyi bildirir ki, elə 21 mayda erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 79 dəfə pozub. Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Şıxlar, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Göründüyü kimi, düşmən sadəcə hiyləgər gediş edir, əslində isə mahiyyəti dəyişmir. Ermənilər azərbaycanlılara qarşı ən dəhşətli hadisələri bizim milli bayramlarımız ərəfəsində törədiblər. Odur ki, onların oyunları əsas gətirib normal davranış sərgiləyəcəyi o qədər də inandırıcı görünmür. Ola bilər ki, Ermənistanın qulağını onun ağası Rusiya bursun və yerində sakit oturmağı tapşırsın. Bəs düşmənin bu məkrli mövqeyinin arxasında hansı niyyət dayana bilər?

Ermənistan Avropa Oyunlarını pozmaq üçün əks-hücuma keçə, Azərbaycanı sakitləşdirib diversiya-təxribat əməlləri törədə bilərmi? **Politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a dedi ki, erməni tərəfin iddialarına heç cür inanmaq olmaz: "Bakıda keçiriləcək İlk Avropa Oyunlarının təhlükəsizliyinin təminatı ilə bağlı dəfələrlə tərəfimizdən qeyd edildiyi kimi, ən böyük təhdid məhz Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək təxribatla bağlıdır. Bu baxımdan Azərbaycan Ordusu və digər cavabdeh qurumlar hər cür təxribata hazır olmalıdırlar və bu məqsədlə müvafiq qabaqlayıcı tədbirlər həyata keçirilir. Bu, tək təmas xəttində və Ermənistanla həmsərhəd ərazilərdə deyil, həm də digər həyat əhəmiyyəti kəsb edən obyekt və ərazilərə də şamil edilməlidir. David Tonoyanın bəyanatına gəldikdə, bu, çox da inandırıcı görünmür. Çünki onun təmsil etdiyi qurum bütün silahlı qüvvələrə ümumi nəzarəti həyata keçirmək iqtidarında deyil. Lakin buna baxmayaraq Avropa dövlətləri qarşısında özlərini "əzilən", "vurulan", "sülhsevər" qismində göstərmək üçün variantlardan istifadə edəcəklər. Həm də idmançılar arasında ermənilərin və ən başlıcası onların Fransa, Rusiya və digər dövlətlər qismində havadarlarının təmsil edilməsi bir sıra təxribatların edilməyəcəyinə bir zəmanətdir. Bir sözlə, istənilən vəziyyətdə Azərbaycan silahlı qüvvələri döyüş hazırlığı vəziyyətində olmalı, digər qurumlar isə gücləndirilmiş şəraitdə öz peşə borclarını yerinə yetirməlidirlər və yəqin ki, belə də olacaq".



**Arzu Nağıyev:**
"İstənilən vəziyyətdə Azərbaycan silahlı qüvvələri döyüş hazırlığı vəziyyətində olmalıdır"



**Zahid Oruc:**
"Məgər ermənilərin təxribatdan imtina edəcəyinə inanmaq mümkündürmü?"



**Üzeyir Cəfərov:**
"Onların əlindən gələn yeganə iş təxribat xarakterli addımlar ola bilər ki, biz də ona hər zaman hazır olmalıyıq"

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Oruc** hesab edir ki, Avropa Oyunlarının cəbhə xəttində hərbi gərginliyin səngiməsinə təsir göstərəcəyi barədə fikirlərin real əsasları var: "Bir tərəfdən, hər iki ölkə beynəlxalq ictimaiyyətin və medianın kütləvi diqqət mərkəzinə çıxacağını nəzərə alır. Xüsusilə də ölkəmiz sabit və təhlükəsiz bir dövlət statusuna iddia edir və geniş miqyasa malik olan idman tədbiri üzərindən xarici investisiyaya, əlaqələr və insani münasibətlərə can atır. Belə olan təqdirdə təmas bölgələrində qanlı toqquşmaların şiddətinin artırılması bizim maraqlarımıza o qədər də cavab vermir. Lakin Azərbaycan tərəfi bütün silahlı qüvvələrini qarşıdakı aylarda yüksək hazırlıq vəziyyətində saxlamaqda davam edəcək. Dünyada həqiqətən böyük olimpiadalardan sonra dövlətlərarası müharibələr və ərazi işğalları geniş vüsət alıb. Bunu danmaq olmaz. Hücum qərarını verən ölkə sanki əldə etdiyi siyasi gücdən, informasiya məkanındakı pozitiv təbliğat resursundan revanş çıxmağa doğru can atır. Məsələn, Soçi Olimpiadası hökmran bir dövlət imicinə apelyasiya edən Putinin Ukrayna ətrafında Qərbin planlarına zərbə vurmağa şans kimi dəyərləndirilir. Bir az da keçmişə dönəndə - 1980-cı illərdə Sovetlər Birliyində keçirilən idman yarışları Amerika ilə gələcək toqquşmaların katalizatoruna çevrilmişdi. Ona görə də ermənilər Azərbaycana dair iddialarında bir məntiq var. Yəni ölkəmiz bütün xarici siyasətini, daxili gücünü Qarabağın alınmasına yönəltdiyindən Avropa Oyunlarına təkcə yaşıl meydanda dinc mübarizə kimi deyil, həm də Ermənistanla savaşın ayrı bir müstəvidə davamı kimi yanaşır. Lakin yarışların bitməsi ilə müharibə əmrinin veriləcəyi haqqında qəti fikri söyləməyə yalnız dövlət başçısının səlahiyyəti var. Bununla bərabər, səngərdə gücü artan Azərbaycan əsgəri gələcək savaşa Avropa Oyunlarından daha məsuliyyətlə və əzmlə çalışır".

**Z.Oruc erməni tərəfin "olimpiya barış"la bağlı iddialarına da toxundu:** "Avropa Oyunları üzrə Ermənistanla ayrıca "sülh sazişi"nin razılaşdırılması xəbərini təsdiqləyə bilmərəm. Çünki qarşı tərəflə Minsk formatından kənarda diplomatik kontaktlar, yaxud müdafiə nazirləri arasında görüş təcrübəsi mövcud deyil. Ona görə də ermənilərin bu xəbəri yayması sülhpərvər ölkə imicini kultivasiya etməyə, Azərbaycanın uğurundan faydalanmağa xidmət edir. Məgər ermənilərin təxribatdan imtina edəcəyinə inanmaq mümkündürmü?"

**Hərbi ekspert Üzeyir Cəfərov** isə bildirdi ki, Ermənistanın müdafiə nazirinin birinci müavini David Tonoyanın açıqlaması haqqında ilk dəfə Londondan zəng edən həmkarlarımızdan eşidib: "Doğrusu, əvvəl elə bildim ki, həmkarlarımız nəyisə səhv salıb. Xüsusən də mülki şəxs olan bu cənabın söylədiyi sözlər sadəcə çox gülünc və məntiqsizdir. Görün bu bədnam erməni məmuru nə deyib: "Ermənistan silahlı qüvvələri Bakıdakı Avropa Olimpiya Oyunları zamanı Dağlıq Qarabağ münaqişəsi zonasında gərginliyin yenidən artmasına imkan verməmək üçün əllərindən gələni edəcəklər". Və bu, binəva savadsız daha sonra Azərbaycan tərəfini də eyni cür davranmağa çağırıb. Mən çox çətinlik çəkirəm belə həyasızlığa və riyakarlığa ad verməyə. Bax, dil çaşar həqiqəti söyləyər. Dünənə kimi özlərinə sərf edəndə deyirdilər ki, Ermənistan SQ-in işğal altında olan ərazilərdə heç bir missiyası yoxdur. Yəni orada hansısa qondarma "DQR ordusu" yerləşir və bütün məsələlər görə onlarla danışın. Əslində biz bilirik ki, adıçəkilən separatçı qurumun heç bir gücü və imkanı yoxdur ki, Azərbaycan SQ ilə üz-üzə gəlsin. Sadəcə bu binəvalar özlərinə lazım olanda "gah zilə çıxırlar, gah da, bəmə düşürlər".

**Ü.Cəfərov onu da bildirdi ki, indi ermənilər özlərini dünyaya guya "sülhsevər" olmalarını göstərmək istəyirlər:** "Faktiki olaraq bütün dünya bunların necə "adam olmaqlarını" 20 ildən artıqdır görür. Ona görə də onların əlindən gələn yeganə iş təxribat xarakterli addımlar ola bilər ki, ona da biz hər zaman hazır olmalıyıq ki, qarşısını vaxtında və lazımı şəkildə alaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT

Son səhifə

N 111 (6139) 23 may 2015



# Ağ ciyər üçün faydalı qidalar

Amerikalıların "an apple a day, keeps the doctor away" şəklində bir deyimi vardır. Yəni gündə 1 alma yesəniz həkimə ehtiyacınız qalmaz. Alma bir çox xəstəlikdən bədəni qoruyur, ağ ciyər üçün də olduqca faydalıdır. Gündə 1 alma qəbul etməklə ciyərləri xəstəliklərə qarşı qorumaq mümkündür. Somon kimi yağlı balıqların tərkibində olan omeqa 3 yağ turşuları sayəsində ağ ciyərlərimiz güclənir. Şaftalının tərkibində olan A vitamini, antioksidantlar, dəmir və liflər sayəsində ağ ciyərlərdə infeksiya meydana gəlməsinin qarşısını alar. Ağ ciyər sağlamlığını dəstəkləyən ən əhəmiyyətli tərəvəzlərdən biri də brokolidir. Xüsusilə xroniki ağ ciyər narahatlığı olan xəstələrin tez-tez brokoli qəbul etməsi lazımdır. Gündə 1 ovuc qoz yemək asma və tənəffüs alma çətinliyi kimi narahatlıqlarla mübarizədə faydalıdır. Rəngli dolmalıq bibərlərin tərkibindəki çoxsaylı vitamin ağ ciyərləri gücləndirərək xəstəliklərə qarşı bir qoruma qalxanı meydana gətirir.

# Qu minlərlə yumurta oğurlayıb

Çindəki fabriklərdən birində mühafizəçi işləyən şəxsin özünün yumurta oğurlaması böyük təəccüblə qarşılanıb. Çinin Pinqhu şəhərində baş vermiş hadisədə soyadı Qu olan şəxsin evində 1000 ədəd yumurta aşkarlanıb. Evdə aparılan axtarışa Qunun içi yumurta ilə dolu 2 çanta ilə fabrikin çıxışında yaxalanması səbəb olub. Aşkarlanan yumurtaların üzərində etiket və tarix də olub. Günahını etiraf edən Qu yumurtanı çox sevdiyini bildirib. Mühafizəçinin evində həmçinin ət, sabun, salfet, yuyucu toz və s. aşkarlanıb. Neçə dəfə oğurluq etdiyini xatırlamadığını deyən Qu evdəki hər şeyin oğurluq olduğunu bildirib. Fabrik rəhbərliyi isə baş verənlərə görə şoka düşdüklərini bildirib. "Hamı kimi biz də fabriki qorumaq kimi öhdəliyi olan birinin belə bir addım atmasından çox təəccübləndik. Ailəsi olmadığı üçün gecələr işləyən və işini sevən bir insan idi. İndi öyrəndik ki, gecələr dolaşaraq heç kimin onu görmədiyi anda oğurluq edirmiş".



# Facebook haqqında bilinməyənlər

**Sosial şəbəkələr həyatımızın bir hissəsinə çevrilib. Biz hər nə qədər müqavimət göstərsək də, bundan asılı oluruq. Çox zaman keçirdiyimiz facebook haqqındakı bilinməyən gerçəkləri araşdırdıq.**

Kiber casuslar diqqət çəkən başlıqlar sayəsində facebook hesablarını idarə altına ala bilirlər. "Clickjackers" deyə xatırlanan bu casuslar, istifadəçiləri aldadaraq bir sıra videoları öz profillərində paylaşa bilirlər.

Ən məşhur facebook səhifəsi 43.9 milyon pərəstişkarıyla "Texas Hold'em Poker"dir. "Eminem" 38.7 milyondan çox pərəstişkarıyla Facebookun ən məşhur ulduzudur.

FarmVille kimi online oyunları oynayaraq bu tərz tətbiqlərin profilinizə yüklənməsi üçün səlahiyyət verirsiniz. Bu da fərdi məlumatlarınızın üçüncü şəxslərlə paylaşılmasına imkan verir. Facebook bu məlumatlarınızı reklam verənlərlə paylaşır.

Əgər profilinizə bir sıra gizlilik məhdudlaşdırmaları gətirmədinizsə bu, dostunuz olmayan insanların google ya da digər axtarış robotları ilə məlumatlarınıza rahat çatmaq imkanı təmin edir.

İlk qurulanda facebookun ana səhifəsində qismən gizlənmiş bir kişi sifəti meydana çıxırdı və bu Al Pacinonun şəkli idi.

Facebook bəzi profilləri adlara söykənərək, saxta olduqları üçün silə bilir. Məsələn, facebookun yaradıcısı Mark Zuckerbergla eyni ad-soyada malik şəxs bu adla qeydiyyatdan keçərsə, silinə bilər.





# 1 mm-lik ilk televizor

**"LG" şirkəti orqanik işıq diodları ("OLED") texnologiyası ilə hazırlanmış ekrana malik çox nazik - 55 düyümlük televizor prototipini nümayiş etdirib. Bu cihazın qalınlığı 1 mm-dən azdır. Televizor Seulda keçirilmiş sənaye sərgisində təqdim edilib. Onun çəkisi təxminən 2 kq-dır və maqnit altlığının köməyi ilə divara bərkidilir. Bu barədə "ICTnews" xəbər yayıb. Nümayiş etdirilmiş modelin kütləvi istehsala çıxarılma tarixi açıqlanmayıb. Orqanik işıq diodları texnologiyası ilə hazırlanmış ekranlar işıqlandırma tələb etmir. Onlar maye kristal ekranlarla müqayisədə daha nazik və yüngüldür, həmçinin daha parlaq və enerji effektivdir, ancaq qiyməti bahadır. İndi "LG" şirkətinin əlçatan olan 55 düyümlük "OLED" televizorlarının qalınlığı 4,3 mm təşkil edir.**

"LG" şirkəti aparıcı "OLED" ekran istehsalçısıdır. Bu sahədə əsas rəqibi "Samsung" şirkətidir.




**QOÇ** - Maliyyə problemlərinizin qabarmasını istəmirsinizsə, bir az qənaətcil olun. Yaxşı olar ki, ciddi məbləğ tutan alış-verişə girişməyəsiniz. Əsas vaxtınızı sevgiyə həsr edin.

**BUĞA** - Düşüncə və fikirlərinizin reallığa uyğun olmasını ulduzlar da təsdiqləyir. Bu səbəbdən də kənar məsləhətlərə o qədər də ehtiyacınız yoxdur. İmkan daxilində açıq havada az olmağa çalışın.

**ƏKİZLƏR** - Hazırda "hakim" bürc siz olduğunuz üçün enerjiniz xeyli artacaq. Odur ki, bu potensialı səmərəli istiqamətə yönəltməyə səy göstərin. İşgüzar sövdələşmələrə başlamağa dəyər.

**XƏRÇƏNG** - Havaların qeyri-sabitliyi, maqnit qasırğaları səhhətinizə mənfi təsir göstərə bilər. Bunu nəzərə alıb açıq havada çox durmayın. Bu gün istənilən ikitərəfli əməkdaşlığınız uğurla nəticələnəcək.

**ŞİR** - Mübahisəli gündür. Atmaca və böhtanlara əhəmiyyət verməyin. Əsas enerjinizi maliyyə məsələlərinə və peşənizlə məşğulluğa həsr edin. Sevdiyiniz adamın obyektiv fikrinə hörmətlə yanaşın.

**QIZ** - Saat 12-dən sonra maddi durumunuzu dirçəltmək üçün cəhdlər edin. Çox güman ki, bunun səmərəsi olacaq. Günün sonunda isə ürəyinizcə olan ünvanlara qonaq sifətilə baş çəkin.

**TƏRƏZİ** - Həmkarlarınızla davranışlarda nəzakətli olun. Çünki ulduzların düzümü bu gün çoxlarının sizdən incik düşəcəyini göstərir. Fəaliyyət zəminində isə böyük işlərə başlamağa dəyər.

**ƏQRƏB** - Bütün enerjinizi qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəldin. Umu-küsüləri bir tərəfə atın. Çünki şəxsi işlərinizdə böyük dönüş yaxınlaşmaqdadır. Fəaliyyətlə bağlı səfərə çıxmaq olar.

**OXATAN** - Hər mənada uğurlu gündür. Qarşıya qoyduğunuz vəzifələrin əksəriyyətini reallaşdıracaqsınız. Bunun üçün müttəfiqlərinizin köməyindən yararlanın. Bütün detalları saf-çürük edin.

**OĞLAQ** - Saat 14-16 arası gərginliklə üzləşə bilərsiniz. Bunun qarşısını alsanız, qalan müddətdə heç bir probleminiz olmayacaq. İşgüzar görüşləri təxirə salmayın. Sevindirici xəbər eşidəcəksiniz.

**SUTÖKƏN** - Çox məsuliyyətli gündür. Nəzərdə tutduqlarınızın hamısını reallaşdırmağa çalışın. Yersiz risklərə, bələd olmadığınız adamlarla əməkdaşlığa razılıq verməyin. Səhhətinizi qoruyun.

**BALIQLAR** - Öhdənizə düşən və əksəriyyəti yarımçıq qalan işlərinizi yekunlaşdırmağa çalışın. Heç kimə yalan vəd verməyin. Bu, nüfuzunuza xələl gətirə bilər. Yeni təkliflərə razılıq verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Xəyanət ölümə apardı



45 yaşlı, evli və 3 uşaq anası olan ingilis qadın - Angela Slinn internetdə tanış olduğu sevgilisi ilə görüşmək üçün Hindistana gedib və orada ölüb. Facebook sosial şəbəkəsində tanış olduğu gizli sevgilisi Jaspal Sing ilə görüşmək üçün Hindistana gedən qadının ölkəyə ayaq basdıqdan bir neçə gün sonra həyatını itirməsi hər kəsi şoka salıb. Əvvəlcə qrip olan, daha sonra xəstəliyi ağırlaşan qadın xəstəxanaya gedib. Bir müddət xəstəxanada yatdıqdan sonra isə həyatını itirib. Angelanın əri həyat yoldaşının Hindistanda öldüyünü eşitdiyi zaman şoka düşüb. Arvadının Hindistana gəzmək məqsədi ilə getdiyini düşünən kişi ölüm xəbəri ilə yanaşı xəyanətdən də xəbər tutub. Arvadı haqqında sarsıdıcı xəbərləri eşidən kişi bir neçə gün yaxınları ilə əlaqəsini kəsib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300